QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 084 (5804) **9 may** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# Müasir Azərbaycanın memarı və qurucusu!

*Sabah xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümüdür*



3

Alman faşizmi üzərində qələbədən 74 il ötür



4

Nazirlər Kabinetinin növbəti iclası keçirilib



4

DSX rəisi Ağstafa rayonu ərazisindəki sərhəd döyüş məntəqələrində xidmətin səviyyəsini yoxlayıb



# Ulu Öndər Heydər Əliyev dünya azərbaycanlılarını bir məfkurə ətrafında birəşdirdi



Bu gün Azərbaycan dünyada ən inkişaf etmiş dövlətlərdəndir. Onun xarici görkəmini dəyişən tikintilər, günü-gündən güclənən milli ordu, möhkəm və etibarlı siyasəti dövlətin gələcəyinə uğurla və inamla möhkəmlənməsinə şərait yaradır. Qloballaşmanın vüsət aldığı və informasiya cəmiyyətinin sürətlə formalaşdığı zamanda dünya azərbaycanlıları arasında birlik və həmrəyliyin daha da möhkəmlənməsinə, diaspor hərəkatının güclənməsinə əlverişli şərait yaradıb. Bu inkişaf və uğurlar Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi siyasətin məntiqi nəticəsidir. Bu gün azərbaycançılıq həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideyaya çevrilmişdir. Ümummilli Lider Heydər Əliyev bütün dünyada yaşayan soydaşlarımıza bu ideya ətrafında birləşməyi təlqin edir və bildirirdi ki, azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafını təmin etməkdən ibarətdir.

1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı, bütün sahələrdə olduğu kimi, diaspor quruculuğu işində də əsaslı dönüş yaratdı. Zaman keçdikcə, diaspor quruculuğu Azərbaycan Respublikasının dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildi.

Hələ XX əsrin 70-ci illərinin əvvəllərindən başlayan milli dirçəliş, iqtisadiyyat, mədəniyyət, elm və təhsilin inkişafı, mənəvi mühitin sağlamlaşdırılması, bütövlükdə, milli özünüdərkə təkan verdi. Ötən əsrin 70-80-ci illərində Ulu Öndər Heydər Əliyev böyük qətiyyət, əzm və cəsarətlə xalqın tarixi yaddaşının qorunmasına, mədəniyyətimizin tərəqqisinə və Azərbaycanın bütün dünyada tanınmasına çalışırdı. Həmin dövrün mövcud siyasi reallıqları diaspor problemi ilə milli- ideoloji zəmində açıq və sistemli şəkildə məşğul olmağa imkan verməsə də, mədəniyyət, incəsənət, elm sahəsində ciddi iş aparılır, respublikamızın nailiyyətləri təbliğ edilir və dünya azərbaycanlılarının Vətənlə əlaqəsinə xidmət edəcək hər bir imkandan istifadə edilirdi. Xarici ölkələrlə mədəni əlaqələrin güclənməsi, tərcümə işinin geniş vüsət alması, xaricdə yaşayan həmvətənlərlə Azərbaycan Mədəni Əlaqələr Cəmiyyətinin - "Vətən" Cəmiyyətinin yaradılması həmvətənlərimizin birliyinə və Vətənlə əlaqəsinə xidmət edən mühüm addımlardan idi. İlk növbədə isə, respublikamızın hərtərəfli inkişafı həmvətənlərimizdə milli qürur hissi oyadaraq, onlarda ana yurda maraq və bağlılığı artırırdı.

Müstəqillik qazanmış dövlətdə dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, onlar arasında birliyin və həmrəyliyin təmin olunması, habelə, Azərbaycan icmaları, cəmiyyət və birliklərin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsi ilə bağlı məsələlərin birgə müzakirəsi zərurətini nəzərə alaraq, Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında Ümummilli Lider Heydər Əliyevin məlum Sərəncamı bu möhtəşəm ideologiyanın gerçəkləşməsinə istiqamətləndi. Həmin ilin noyabr ayının 9-u və 10-da Bakıda keçirilən Dünya Azərbaycanlılarının I Qurultayı Azərbaycan tarixinə böyük bir prosesin başlanğıcı kimi daxil oldu. Dünya azərbaycanlılarının I Qurultayı xaricdəki soydaşlarımızın ümumi məqsəd və vahid ideya ətrafında birləşməsi yolunda böyük addım, gələcəyə istiqamətlənmiş önəmli tədbirlərdən biri kimi milli ideologiyamız olan azərbaycançılıq ideyası ətrafında birlik və həmrəyliyi nümayiş etdirdi. Qurultayda xaricdəki həmvətənlərimizlə sistemli iş aparılmasını təşkil etmək, soydaşlarımız arasında milli birliyin möhkəmləndirilməsini təmin etmək məqsədilə xüsusi dövlət qurumunun yaradılması ideyası irəli sürüldü. Ümummilli Lider Heydər Əliyevə məxsus olan bu ideya Azərbaycan diasporunun formalaşdırılması prosesini sürətləndirməyə xidmət edirdi.

Bu illər ərizində Azərbaycan diaspor təşkilatları daha da formalaşıb, coğrafi məkanı genişlənib. Bu gün 450-dən çox diaspora təşkilatı dünya ölkələrində Azərbaycanın maraqlarına xidmət edir. Xarici ölkələrdə diplomatik nümayəndəliklərin və səfirliklərin olması Azərbaycan həqiqətləri ilə bağlı dünya ictimaiyyətini məlumatlandırmasında, Vətənin səsinin dünyanın istənilən qitəsindən eşidilməsində rolu danılmazdır. Müasir dövrümüzdə dünyanın bir çox ölkələrində - Avropada və Şimali Amerikada artıq böyük Azərbaycan icmaları yaranıb. Ulu Öndər Heydər Əliyevin diaspor quruculuğunda qoyduğu ənənə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ulu Öndər Heydər Əliyevin dünya azərbaycanlılarını vahid məqsəd ətrafında birləşdirmək siyasəti bu gün Prezident İlham Əliyevin fəaliyyətində davam etdirilir. Bu isə, həmvətənlərimizin təşkilatlanması, onlar arasında ideya-mənəvi birliyin daha da möhkəmləndirilməsi və diaspor quruculuğu işinin müvəffəqiyyətlə həyata keçirilməsi baxımından çox böyük əhəmiyyətə malikdir. Xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması, cəmiyyətə inteqrasiyası, soydaşlarımızın ictimai-siyasi həyatda iştirak səviyyəsinin artırılması, habelə, diaspor təşkilatları arasında səmimi əməkdaşlıq münasibətlərinin yaradılması istiqamətində bir sıra tədbirlər həyata keçirilib.

Bu gün azərbaycanlı icmaları yaşadıqları ölkələrdə baş verən mühüm hadisələrə dair öz mövqeyini bildirir, seçkilərdə fəal iştirak edir, siyasi partiyalarda və qeyri-hökumət təşkilatlarında təmsil olunur, bir sıra ölkələrdə isə parlament üzvlüyünə seçilirlər. Bütün bu uğurların əsasında doğma Vətənə sevgi və Azərbaycana layiqincə xidmət arzusu dayanır.

Dünya Azərbaycanlılarının IV Qurultayında irəli sürülən ideya və təkliflər gələcəkdə dünya azərbaycanlılarının fəaliyyətinə, vətən naminə daha fəal iş görmək, bu istiqamətdə səyləri birləşdirmək baxımından, stimul oldu. Qarşıya qoyulan məsələlər onların gələcək fəaliyyət yollarını müəyyənləşdirdi. Belə ki, qurultayın açılışında nitq söyləyən Azərbaycan Prezidenti İlham Əliyev dünyaya səpələnmiş soydaşlarımızın azərbaycançılıq ideyası naminə birləşmək baxımından diaspor üzvlərinin qarşısına yeni vəzifələr qoydu. Dünya azərbaycanlılarının Vətənlə əlaqəsinin daha da güclənməsi, Vətənlə əlaqələrin sıx olmasını tövsiyə etdi. XX yüzillik informasiya əsri olduğu zamanda informasiya müharibəsinin, bu sahədə yeni fəaliyyət mexanizmlərinin tətbiqi də əsas mövzu olaraq diqqətdə saxlanıldı və yeni təkliflər irəli sürüldü. Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması sahəsində təbliğat mexanizminin gücləndirilməsi üçün lazım olan müasir metodların və informasiya texnologiyalarının tətbiqinin zəruriliyi qeyd olundu. Bu gün artıq qarşıya qoyulan məqsədlərə kifayət qədər əməl olunub. Xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirilməkdədir. İndiyədək əldə olunan təcrübə diaspor təşkilatlarımızın daha yetkin və nəzərəçarpacaq fəaliyyət göstərmələrinə imkan verir. Diasporumuzun gördüyü işlər yaşadıqları ölkələrin siyasi həyatına təsir edəcək səviyyəyə yüksəlir. Bu da, öz növbəsində, Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq ideologiyasının məntiqi nəticəsidir.

***"SƏS" Analitik Qrupu***

# Alman faşizmi üzərində qələbədən 74 il ötür

***9 may - alman faşizmi üzərində qələbədən 74 il ötür. İkinci Dünya müharibəsi illəri bəşəriyyətin XX əsrdə üzləşdiyi ən ağır və dəhşətli dövr olub. Bu tarixi qələbədə Azərbaycanın, onun övladlarının və neftinin əhəmiyyəti böyükdür. Müharibə başlanandan keçən qısa müddət ərzində, Azərbaycan ərazisində 87 qırıcı batalyon, 1124 özünümüdafiə dəstəsi təşkil edilib, 1941-1945-ci illərdə respublikanın 700 mindən çox oğlan və qızları cəbhəyə getmişdir. Onların təxminən yarısı döyüş meydanlarında həyatlarını itirmişdir. Müharibə zamanı göstərdikləri igidliyə görə 124 nəfər azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz isə müxtəlif orden və medallarla təltif edilib.***



Azərbaycanlı çağırışçı və könüllülərdən formalaşdırılan 77-ci, 223-cü, 336-cı, 402-ci və 416-cı milli atıcı diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçmişdir. Xalqımızın qəhrəman övladları Moskva, Leninqrad, Kiyev, Stalinqrad, Simferopol, Odessa və irili-xırdalı digər yüzlərlə yaşayış məntəqəsinin düşməndən azad edilməsi uğrunda rəşadətlə döyüşmüşlər. Həmyerlilərimiz Polşa, Çexoslovakiya, Yuqoslaviya və digər ölkələrin azad olunmasında da yaxından iştirak etmişlər. Partizan hərəkatında iştirak edən soydaşlarımız da saysız-hesabsız qəhrəmanlıq nümunələri göstərmişlər. İkinci Dünya müharibəsində şərəfli döyüş yolu keçən Azərbaycan övladlarının qəhrəmanlığı və şücaəti heç vaxt yaddaşlardan silinmir və gənc nəsil üçün əsl vətənpərvərlik nümunəsidir.



Xalqımız faşizmə qarşı müharibədə döyüş meydanları ilə yanaşı, arxa cəbhədə də əsl şücaət və əzmkarlıq göstərmişdir. İkinci Dünya müharibəsində qələbənin qazanılmasında Bakı nefti əvəzsiz rol oynamışdır. 1941-1945-ci illər müharibəsi zamanı Sovet İttifaqının istifadə etdiyi neftin 70 faizindən çoxu, benzinin 80 faizi, motor yağlarının isə 90 faizi Azərbaycanın payına düşmüşdür. Azərbaycan Berlinin alınması zamanı Almaniya səmasında uçuşlar həyata keçirən 7 min hərbi təyyarənin yanacaq təchizatında da mühüm rol oynamışdır. Xalqımız cəbhəyə 7 tondan çox donor qanı göndərmiş, döyüşən ordunun ərzaq və isti geyimlə təchizatında fəal mövqeyi ilə seçilmişdir. Azərbaycan faşizm üzərində qələbə naminə bütün imkanlarını maksimum səfərbər etmişdir.

1941-1945-ci illərin alovunu Azərbaycanın hər bir vətəndaşı yaşıyıb. Aclıq və səfalət hər bir qapını döyüb. Müharibə illərində Azərbaycanın bütün iqtisadiyyatı da müharibə tələblərinə uyğun qurulmuşdu. Fəhlə və qulluqçular üçün iş günü 11-12 saata qaldırılmışdı. Məzuniyyətlər ləğv olunmuşdu. Ərzaq, gündəlik tələbat və çox işlənən sənaye məhsullarının satışı üzrə kartoçka sistemi tətbiq edilmişdi. Orduya səfərbər edilmiş işçilərin yerinə qadınlar və yeniyetmələr cəlb olunmuşdu. Bütün sənaye sahələri cəbhə üçün məhsul istehsal etməyə başlamışdılar. Azərbaycan hərbi əməliyyat meydanına çevrilməsə də, müharibənin əvvəlindən axırınadək, bu meydanda fəal iştirak etdi. Bakıda - indiki Səttərxan adına zavodda müharibə üçün silah-susat istehsal olunurdu. "Katyuşa" raketi, "Şpakin pulemyotu", "YAK-3" qırıcı təyyarəsi yığılırdı. Bütün qüvvələr faşizm üzərində qələbəyə yönəldilmişdi.



Azərbaycanda hazırda 1000 nəfərdən artıq Böyük Vətən müharibəsi veteranı yaşayır. 9 may - faşizm üzərində qələbədən 74 il ötsə də, həmin illərin ağrısını-acısını yaşayan insanlar hələ də var. Həmin illərdə baş verən hadisələrin, müharibənin şahidi və iştirakçısı olan insanların qələbə istəyi ilə Berlinə qədər getmələri, fədakarlıqları və ərənlikləri torpaqlarımızın 20 faizinin işğal altında olduğu bir zamanda bugünkü gənclərə örnəkdir.

İkinci Cahan savaşının od-alov püskürən cəbhələrində ölümlə üzüzə dayanan, qəhrəmanlıq göstərən insanlara və müharibə veteranlarına Azərbaycanda böyük saygı var. Veteranlara ikinci həyatı isə öz diqqət və qayğısı ilə Ulu Öndər Heydər Əliyev bəxş etmişdir. Ümummilli Lider Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə müharibə veteranlarının problemlərinə xüsusi diqqət yetirmiş və onlara hərtərəfli qayğı ilə yanaşmışdır. Müstəqilliyin ilk illərində veteranlara ədalətsiz münasibət heç kimin yadından çıxmayıb, AXC-Müsavat iqtidarı dövründə, hətta 9 May Qələbə Gününü də ləğv etmək fikrində idilər. Ulu Öndər Heydər Əliyev 1993-cü ildə Azərbaycanda hakimiyyətə qayıdışından sonra bu ədalətsiz münasibət aradan götürüldü, ədalət bərpa olundu və veteranlara layiq olduqları hörmət göstərilməyə başlandı. "Tarix bu gün də bilməlidir ki, İkinci Dünya müharibəsində Azərbaycan Respublikasının xidməti, fəaliyyəti, rolu çox böyük olmuşdur", deyən Dahi Öndər Heydər Əliyev müharibə veteranlarını "Xalqımızın Qızıl Fondu" adlandırırdı.

Ölkəmizdə müharibə veteranlarına qayğının və onların sosial müdafiəsinin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Ulu Öndər Heydər Əliyevin bu sahədəki siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev İkinci Dünya müharibəsinin ağır və çətin sınaqlarından keçmiş veteranların qayğılarına həssaslıqla yanaşır. Qələbə bayramı ərəfəsində 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalayıb. Görülən işlər Azərbaycanın dövlət siyasətinin insan amilinə söykənməsi və humanist mahiyyət kəsb etməsinin növbəti bariz nümunəsidir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Nazirlər Kabinetinin növbəti iclası keçirilib

Mayın 8-də Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədovun sədrliyi ilə Nazirlər Kabinetinin növbəti iclası keçirilib.




AZƏRTAC xəbər verir ki, iclası açan Baş Nazir Novruz Məmmədov Azərbaycan musiqisinin beşiyi, ölkəmizin əsrarəngiz gözəlliyə malik guşələrindən biri hesab edilən Şuşa şəhərinin erməni qəsbkarları tərəfindən işğalından 27 il ötdüyünü bildirib. "İşğal nəticəsində Azərbaycanın füsunkar təbiətə malik bu şəhərindəki zəngin tarixi-mədəni abidələr, muzeylər dağıdılıb. Nüfuzlu beynəlxalq təşkilatların Ermənistanın işğalçılıq siyasətini pisləyən qərar və qətnamələrinə, dünyanın aparıcı dövlətlərinin Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsinə baxmayaraq, işğal hələ də davam edir. Dövlətimizin başçısı İlham Əliyevin də hər zaman qeyd etdiyi kimi, Azərbaycan heç vaxt indiki vəziyyətlə barışmayacaq və ərazi bütövlüyünü bərpa edəcək", - deyə Baş Nazir vurğulayıb.

Xalqımızın ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünü qeyd etdiyini bildirən Novruz Məmmədov deyib ki, Ümummilli Liderimizin əziz xatirəsi hər bir Azərbaycan vətəndaşının qəlbində daim yaşayır və yaşayacaq. Baş Nazir deyib: "Bu gün müstəqillik yolunda uğurla addımlayan və gündən-günə inkişaf edən Azərbaycanın qazandığı böyük nailiyyətlər məhz ulu öndər Heydər Əliyev dühasının bəhrəsidir. Hər birimiz bugünkü firavan həyatımıza, xoş gələcəyimizə görə əbədiyaşar liderimizə borcluyuq".

Sonra Novruz Məmmədov iclasın gündəliyi barədə məlumat verib.

Bildirilib ki, iclasın gündəliyinə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulan tədbirlərin icra vəziyyəti və yeni layihənin müzakirəsi, həmçinin "Azərbaycan Respublikasının ali və orta ixtisas təhsili müəssisələrinə qəbul planlarının tərtibi təcrübəsi və 2019-2020-ci tədris ili üçün tələbə qəbulu planının tərtib edilməsi" haqqında məsələlər daxil edilib.

Baş Nazir deyib ki, 1996-cı ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə işinin əlaqələndirilməsi məqsədilə komissiya yaradılıb. Prezident İlham Əliyev də ölkəmizdə narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəni mühüm vəzifə kimi müəyyənləşdirib. Dövlətimizin başçısı bununla bağlı qarşıya ciddi vəzifələr qoyub. Bu sahədə mühüm uğurların əldə olunduğunu vurğulayan Novruz Məmmədov qeyd edib ki, qazanılan nailiyyətlərdə müvafiq Dövlət proqramlarının mühüm rolu olub.

Azərbaycan dövlətinin təhsilin inkişafına xüsusi diqqət ayırdığını deyən Baş Nazir qeyd edib ki, son 15 ildə dövlət büdcəsindən bu sahəyə ayrılan vəsaitin 8 dəfə artırılması, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın qəbul edilməsi Prezident İlham Əliyevin təhsilə göstərdiyi böyük qayğının təcəssümüdür. Əsas məqsəd ölkəmizdə keyfiyyətli təhsil sisteminin qurulması, yüksəkixtisaslı, zəngin dünyagörüşlü kadrların yetişdirilməsindən ibarətdir.

Sonra daxili işlər nazirinin birinci müavini Vilayət Eyvazovun, təhsil naziri Ceyhun Bayramovun gündəlikdəki məsələlərlə bağlı məruzələri dinlənilib. İclasda mövzularla bağlı çıxışlar olub, müxtəlif təkliflər səsləndirilib.



## Mehriban Əliyeva: "Ölkəmizi, şəhərimizi doğma evimiz - ümumi evimiz kimi qorumalıyıq"

"Azərbaycanın və onun paytaxtı Bakının memarlıq və tarixi irsinin qorunub saxlanılması hər birimiz üçün prioritet məsələdir. Onun həlli üçün həm vətəndaş mövqeyi, həm insanların öz doğma şəhərinin simasına biganə yanaşmaması, həm də fəal ictimai nəzarət gərəkdir. Bakının Süleyman Rüstəm küçəsindəki qədim bina ətrafında yaranmış vəziyyət dövlətin nəzarəti altındadır. Ölkəmizin mədəni irsinə xələl gətirilməməsi üçün bütün lazımi tədbirlər görülür, axı unikal və müxtəlif memarlıq abidələri bizim ümumi sərvətimizdir.Ölkəmizi, şəhərimizi doğma evimiz - ümumi evimiz kimi qorumalıyıq". Bu fikirlər Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyevanın "İnstagram" səhifəsində paylaşılıb.

## DSX rəisi Ağstafa rayonu ərazisindəki sərhəd döyüş məntəqələrində xidmətin səviyyəsini yoxlayıb





Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi, general-polkovnik Elçin Quliyev DSX Sərhəd Qoşunlarının Ağstafa rayonu ərazisindəki hərbi hissə və bölmələrinin xidməti-döyüş fəaliyyətini yoxlayıb, sərhəd döyüş məntəqələrində xidmət edən şəxsi heyətlə görüşüb.

DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, general-polkovnik Elçin Quliyev Ermənistan silahlı qüvvələrinin bölmələri ilə təmas xəttində sərhəd mühafizə və müdafiə infrastrukturunun yaradılması istiqamətində görülən işlərə baxış keçirib, dövlət sərhədinin toxunulmazlığının və şəxsi heyətin təhlükəsizliyinin təmin edilməsi üzrə tapşırıqlar verib.

# "Veteranlar qayğı ilə əhatə olunduqları üçün qürur duyurlar"

"9 may - Qələbə günü Azərbaycan üçün önəmlidir və bu bayramı qeyd etməyə mənəvi haqqımız çatır. Çünki qələbənin əldə olunmasında 700 mindən çox azərbaycanlı iştirak edib və yarıdan çoxu müharibədən geri dönməyib". Bu fikirləri SİA-ya açıqlamasında Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov deyib. O bildirib ki, II Dünya Müharibəsində 124 azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb: "Minlərlə azərbaycanlı SSRİ kimi dövlətin ali orden və medallarına layiq görülüb. Müharibə illərində Azərbaycan cəbhənin 80 faizini neftlə təmin edib. Ölkəmizdən 123 çeşiddə silah-sursat hazırlanıb müharibəyə göndərilib. Azərbaycanda 28 hospital fəaliyyət göstərib. Hansı ki burada yüzlərlə yaralı müalicə olunub, yenidən müharibəyə qaytarılıb".



Təşkilatın sədr müavini söyləyib ki, müharibə zamanı azərbaycanlılar qələbəyə nail olmaq üçün öz ehtiyat qızıllarını, pullarını müharibə göndərib, analarımız corab toxuyub, paltar tikərək cəbhəyə göndəriblər: "Bütün bunlara görə də Azərbaycanın, xalqımızın alman faşizmi üzərində qələbənin 74-cü ilini qeyd etməyə haqqı çatır. Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı olaraq bizim də üzərimizə düşən əsas vəzifələrdən biri müharibədə həlak olanları anmaq, sağ olanlar haqqında gəncləri məlumatlandırmaqdır".

Azərbaycan dövləti və xüsusilə də Prezident İlham Əliyevin veteranlara olan diqqətindən söz açan C. Xəlilov qeyd edib ki, ölkəmizdə bütün kateqoriyadan olan veteranlara, o cümlədən böyük vətən müharibəsi iştirakçılarına hər zaman qayğı ilə yanaşılır: "Ötən gün maddi bazamızın gücləndirilməsi ilə bağlı ayrılan maliyyə yardımı, bundan əvvəl təşkilat üçün ayrılan ofis, ümumilikdə hər il veteranlara bayramdan öncə birdəfəlik maliyyə yardımlarının ayrılması diqqətin bariz göstəricisidir. Veteranlarımız da bu gün həm dövlət, həm ölkə başçısı, həm də cəmiyyət tərəfindən qayğı ilə əhatə olunduqları üçün qürur duyurlar ".

Ehtiyatda olan polkovnik xatırladıb ki, 90-cı illərin əvvəllərində Azərbaycanda bir müddət Qələbə gününün qeyd edilməsinin ləğvi veteranlar arasında narazılıq yaratmışdı: "Lakin Ümummilli lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra 9 may tarixi böyük bayram kimi qeyd olunmağa başlandı, hətta veteranlarla bağlı qanun da qəbul olundu. Ulu Öndərin hakimiyyəti dövründə veteranlarla bağlı atılan addımlar bu gün Prezident İlham Əliyev tərəfindən daha geniş, daha güclü şəkildə atılmaqdadır. Son dövrlərdə Prezident İlham Əliyev tərəfindən imzalanan 20 dən çox sənədlər bütün kateqoriyalı veteranları əhatə edir. Veteranların sosial müdafiəsinin yaxşılaşdırılması daim diqqətdədir. Bu gün fəxrlə deyə bilərik ki, ölkəmizdə elə bir müharibə iştirakçısı yoxdur ki, evlə, avtomobillə təmin olunmasın. Bundan əlavə onlar müxtəlif sanator müalicə, reabilitasiyalardan yararlanırlar". Təşkilatın sədr müavini əlavə edib ki, 9 may - Qələbə gününü Azərbaycan bu gün də, sabah da və gələcək də qeyd edəcək, tarixdə iz qoyan insanları, qəhrəmanları yada salacaq: "Hesab edirəm ki, Azərbaycan gəncliyi veteranlarımızın təcrübələrindən istifadə etməli, bu qələbəni Qarabağda təkrar etməlidirlər".

## Şahin Mustafayev: Üç ayda Azərbaycanla Hindistanın ticarət dövriyyəsi 300 milyon dollara çatıb



Cari ilin birinci rübündə Azərbaycan ilə Hindistan arasında ticarət dövriyyəsi 66 faiz artaraq 300 milyon dollara yaxın olub. Bu barədə iqtisadiyyat naziri Şahin Mustafayev deyib.

Nazir qeyd edib ki, Azərbaycanda 230-dək Hindistan kapitallı şirkət fəaliyyət göstərir. Hindistan şirkətləri Azərbaycan iqtisadiyyatında 1,2 milyard dollar investisiya yatırıb. 2018-ci ildə Azərbaycan və Hindistan arasında ticarət dövriyyəsi əvvəlki illə müqayisədə 84 faiz artıb.

# Naxçıvan Diaqnostika Müalicə Mərkəzinə müasir angioqrafiya aparatı verilib





Mayın 8-də Naxçıvan Diaqnostika Müalicə Mərkəzində yeni alınmış angioqrafiya aparatının təqdimatı olub. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə iştirak edib.

Naxçıvan Muxtar Respublikasının Səhiyyə naziri Niyazi Novruzov çıxış edərək deyib ki, muxtar respublikada əhalinin sağlamlığının qorunması, tibbi xidmətin səviyyəsinin yüksəldilməsi və bu sahənin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər görülür. Göstərilən qayğının nəticəsidir ki, 2018-ci ildə Naxçıvan Muxtar Respublikasında İcbari Tibbi Sığortanın tətbiqi ilə əlaqədar Sədərək, Şərur və Kəngərli rayon Mərkəzi xəstəxanalarına, Şərur Rayon Uşaq xəstəxanasına yeni avadanlıqlar alınıb. Diaqnostika Müalicə Mərkəzində süni ağciyər - Ekstrakorporal Membran Oksigenasiya aparatı quraşdırılıb, səhiyyə müəssisələrinə yeni təcili yardım avtomobilləri verilib, tibbi sığortanın tətbiqinə hazırlıq işləri ilə əlaqədar bütün rayon və şəhər tibb müəssisələrində proqram təminatının yaradılmasına başlanılıb. “Nəxşicahan Med” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Doğum Mərkəzinə hamilələrdə döldə və yeni doğulmuşlarda ürək qüsurunun aşkar olunması üçün stasionar exo-kardioqraf aparatı hədiyyə edilib. Bütün bunlar əhalinin müayinə və müalicəsində əsaslı dönüş yaradıb. Hazırda muxtar respublikanın səhiyyə müəssisələrində xəstəliklərin diaqnostik müayinə və müalicəsi üçün ən yeni avadanlıqlar və həmin cihazlarda işləyən ixtisaslı kadrlar mövcuddur. Bu işlərin davamı olaraq Naxçıvan Diaqnostika Müalicə Mərkəzində yeni angioqrafiya aparatı alınaraq quraşdırılıb. Niyazi Novruzov göstərilən qayğıya görə tibb işçiləri və burada müalicə olunanlar adından Ali Məclisin Sədrinə minnətdarlıq edib.

Naxçıvan Diaqnostika Müalicə Mərkəzinin angioqrafiya üzrə həkim-kardioloqu Nail Mehbalıyev deyib: Son illər səhiyyə sisteminin yenidən qurulması və dünya standartlarına uyğunlaşdırılması bu xidməti keyfiyyətcə daha da yaxşılaşdırıb, xəstəliklərin profilaktikası və əhalinin sağlamlığının qorunması sahəsində dönüş yaranıb. Ötən ildən publik hüquqi şəxs statusu alan Naxçıvan Diaqnostika Müalicə Mərkəzi bir çox yeniliklərə imza atıb. Artıq bu səhiyyə müəssisəsinin yüksək ixtisaslı həkimləri tərəfindən müstəqil şəkildə xəstələr üzərində açıq ürək, angioqrafiya, laporoskopik, TUR, LOR, göz və digər mürəkkəb cərrahi əməliyyatlar uğurla həyata keçirilir. Bu gün ürək-damar sistemi xəstəliklərinin erkən diaqnostikasında əvəzsiz rolu olan yeni angioqrafiya aparatının istifadəyə verilməsi muxtar respublikada səhiyyənin inkişafına göstərilən qayğının davamıdır. Kollektiv adından minnətdarlıq edən Nail Mehbalıyev bundan sonra da əhalinin sağlamlığı keşiyində duraraq fəaliyyətlərini daha da artıracaqlarını, qarşıya qoyulmuş vəzifələrin, tövsiyə və tapşırıqların icrası üçün qüvvə və bacarıqlarını əsirgəməyəcəklərini bildirib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək deyib: Azərbaycanda səhiyyənin inkişafı ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu istiqamət üzrə, eləcə də verdiyi tövsiyə və tapşırıqlara uyğun olaraq həyata keçirilir. Ulu Öndərimiz deyirdi ki, “Azərbaycanın ən qiymətli sərvəti onun vətəndaşlarıdır”. Ölkə vətəndaşlarının sağlamlıqlarının qorunması isə müasir səhiyyə sisteminin qurulmasından asılıdır. Bu gün Ümummilli Liderimizin səhiyyənin inkişafı ilə bağlı müəyyənləşdirdiyi vəzifələr ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikasında da ən son tibbi avadanlıqlar quraşdırılmış səhiyyə müəssisələri istifadəyə verilir.

Ali Məclisin Sədri deyib: Naxçıvan Diaqnostika Müalicə Mərkəzi fəaliyyətə başlayarkən alınan angioqrafiya aparatı həmin dövrün tələblərinə cavab verirdi. Lakin bütün sahələr kimi, səhiyyə də inkişaf edir, xəstəliklərin müalicəsində müasir avadanlıqlardan istifadə olunur. Muxtar respublikada da bu amil əsas götürülür, ixtisaslı kadr təminatına və tələbata uyğun yeni tibbi avadanlıqlar alınıb quraşdırılır. Vaxtilə muxtar respublikanın həkim və tibb işçiləri normal şəraiti, avadanlıq və dərman təminatı olmayan səhiyyə müəssisələrində çalışırdılar. Bu gün isə muxtar respublika həkimləri müasir avadanlıqlarla təmin olunmuş səhiyyə müəssisələrində əhaliyə tibbi xidmət göstərirlər. Yaradılan şəraitin nəticəsidir ki, muxtar respublikadan kənara xəstə axınının qarşısı alınmışdır.

Ali Məclisin Sədri bu nailiyyətə görə həkim və tibb işçilərinə təşəkkür edərək deyib: Yeni alınmış angioqrafiya aparatı səhiyyənin son nailiyyətlərindəndir. Azərbaycan üzrə ikinci belə aparat muxtar respublikada qurulmuşdur. Naxçıvan Diaqnostika Müalicə Mərkəzindəki mövcud angioqrafiya aparatı isə kardioloji mərkəzə verilmişdir. Bu da həm xəstələrin müalicə üçün digər yerlərə üz tutmamalarına, həm də ixtisaslı həkimlərin yetişməsinə imkan verəcəkdir. Vaxtilə muxtar respublikanın səhiyyə müəssisələrinə yeni tibbi avadanlıqlar alınarkən mütəxəssis çatışmazlığı onlardan istifadəyə imkan vermirdi. Lakin ötən dövrdə səhiyyənin inkişafı ixtisaslı həkimlərin yetişməsinə də səbəb olmuşdur.

“Tibb müəssisəsi qurmaq, yeni avadanlıqlar almaqla yanaşı, ixtisaslı kadrların hazırlanması da səhiyyənin inkişafında əsas məsələdir”, - deyən Ali Məclisin Sədri bildirib ki, muxtar respublikada ixtisaslı tibbi kadrların hazırlanması diqqətdə saxlanılır. Naxçıvan Dövlət Universitetində Tibb fakültəsinin yaradılması, fakültə üçün xəstəxananın istifadəyə verilməsi, yeni tədris korpusunun qurulması, Naxçıvan Tibb Kollecinin fəaliyyətinin təmin olunması və həkimlərin xarici ölkələrdə kurslara göndərilməsi tibbi kadrların hazırlanması işinə mühüm töhfə verir. Eyni zamanda, icbari tibbi sığortanın tətbiqi də uğurla aparılır. Artıq muxtar respublikanın üç rayonunda bu işlər həyata keçirilir. Bütün bunlar onu deməyə əsas verir ki, Naxçıvan səhiyyəsi inkişaf mərhələsindədir.

Ali Məclisin Sədri muxtar respublikada səhiyyənin inkişafında əməyi olanlara təşəkkür edib, yeni alınmış angioqrafiya aparatına baxıb.

Məlumat verilib ki, Naxçıvan Diaqnostika Müalicə Mərkəzi istifadəyə verilən dövrdə burada “Fillips” markalı angioqraf aparatı quraşdırılmışdı və bu günə kimi həmin aparatla 1500-dən artıq angioqrafiya əməliyyatı yerinə yetirilib. Lakin hazırda texniki göstəriciləri daha yüksək olan çoxfunksiyalı cihazlar mövcuddur. Belə yeni cihazlardan biri də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə alınaraq Naxçıvan Diaqnostika Müalicə Mərkəzində quraşdırılan Almaniya istehsalı “SİEMENS ARTİS ZEE” markalı döşəmə tipli müasir angioqrafiya aparatıdır. “Nəxşicahan MED” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən alınmış və ümumi dəyəri 1 milyon 519 min manat olan aparatın əməliyyat stolunda, eyni zamanda, angio və açıq ürək müdaxiləsi etmək mümkündür.

Yeni cihaz əvvəlkindən fərqli olaraq 3-D proqramlıdır. Haçalanmış damarlara 3-D formatda görüntü altında müdaxilə etmək olur. Xüsusilə böyrək çatışmazlığı və kontrast maddəyə allergiyası olan xəstələrdə az kontrastla müayinə və müdaxilə etmək, beyin damarlarının angioqrafiyası və müdaxiləsi, ürək və periferik damarların angioqrafiyası, invaziv angioqrafiya və istənilən damarlara stent yerləşdirilməsi, müvəqqəti və qalıcı kardiostimulyator yerləşdirilməsi mümkündür. Yeni alınmış cihazda test üçün 6 xəstədə angioqrafiya müdaxiləsi aparılıb, iki xəstəyə stent qoyulub.

Naxçıvan Diaqnostika Müalicə Mərkəzində əvvəllər istifadə olunmuş “Fillips” markalı angioqrafiya cihazı isə təmir edilərək Naxçıvan Muxtar Respublikası Kardioloji Mərkəzdə quraşdırılıb. Bu günə kimi Kardioloji Mərkəzdə həmin aparatla 30-dan artıq xəstədə əməliyyat aparılıb.

Ali Məclisin Sədri angioqrafiya aparatından səmərəli istifadə olunması, icbari tibbi sığortanın tətbiqi sahəsində işlərin davam etdirilməsi və əhalinin sağlamlığının daim diqqətdə saxlanılması barədə tapşırıqlar verib.

# Müasir Azərbaycan Ümummilli Liderin ideyaları əsasında inkişaf edir

***YAP İcra katibinin müavini, Milli Məclisin komitə sədri Siyavuş Novruzovun işıq üzü görən "Heydər Əliyev və Azərbaycan dövlətçiliyi", "Qurtuluşdan başlayan tərəqqi" və "Xalqla iqtidarın birliyi" adlı kitabları Heydər Əliyev irsinin öyrənilməsi və gələcək nəsillərə çatdırılması baxımından mühüm əhəmiyyətə malikdir***



Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, milli həmrəylik və bütövlüyü təmin edən azərbaycançılıq ideologiyasının banisi, xalqımızın və dövlətimizin xilaskarı, Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı xidmətləri əvəzsizdir. Ulu Öndər Heydər Əliyevin həm SSRİ dönəmində, həm də müstəqillik illərində ölkəmizə rəhbərliyi dövründə xalqın rifah halının daha da yaxşılaşdırılması, respublikamızın tərəqqisinin təmin olunması və digər istiqamətlərdə tarixi əhəmiyyətə malik olan misilsiz işlər görülüb. Başqa sözlə, Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı tarixi xidmətləri Onun fəaliyyətinin bütün mərhələlərini əhatə edir. Ən əsası, bu gün müasir müstəqil Azərbaycan Ümummilli Lider Heydər Əliyevin ideyaları əsasında inkişaf edir. Ulu Öndərin əsasını qoyduğu siyasət Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən müasir dövrün tələblərinə və çağırışlarına müvafiq olaraq uğurla davam etdirilir, Azərbaycan yeni zirvələr fəth edərək möhtəşəm və parlaq nailiyyətlər qazanır.

Heç şübhəsiz ki, Heydər Əliyev irsi gələcək nəsillər üçün də zəngin xəzinədir və onun öyrənilməsi müstəsna əhəmiyyətə malikdir. Bu günə qədər Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı misilsiz xidmətlərindən bəhs edən çoxsaylı fundamental tədqiqat əsərləri, qiymətli kitablar, dəyərli monoqrafiyalar yazılıb və bütün bunlar böyük dövlət xadiminin, dahi siyasətçinin zəngin siyasi irsinin öyrənilməsi və gələcək nəsillərə çatdırılması baxımından xüsusi önəm kəsb edir. Yeri gəlmişkən, Yeni Azərbaycan Partiyası (YAP) İcra katibinin müavini, Milli Məclisin İctimai Birliklər və Dini Qurumlar Komitəsinin sədri Siyavuş Novruzovun "Heydər Əliyev və Azərbaycan dövlətçiliyi", "Qurtuluşdan başlayan tərəqqi" və "Xalqla iqtidarın birliyi" adlı kitabları işıq üzü görüb. Hər 3 kitab Heydər Əliyev irsinin öyrənilməsinə, Ümummilli Liderin ideyaları əsasında inkişaf edən müasir müstəqil Azərbaycanın keçdiyi zəngin və şərəfli tərəqqi yoluna nəzər salmağa imkan verir.

## "HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN DÖVLƏTÇİLİYİ"

Nəfis tərtibatda hazırlanan, elmi redaktorunun Azərbaycan Respublikasının Baş nazirinin müavini, YAP Sədrinin müavini, İcra katibi, professor Əli Əhmədov olduğu "Heydər Əliyev və Azərbaycan dövlətçiliyi" adlı kitabda müstəqil Azərbaycan dövlətinin qurucusu, Ümummilli Lider Heydər Əliyevin ölkədə siyasi sistemin və tolerantlığın təşəkkül tapmasında, Azərbaycanın Avropaya inteqrasiya olunmasında və iqtisadi baxımdan dirçəlməsində, siyasi plüralizm və demokratiyanın inkişafında rolundan bəhs edən məqalələr toplanıb.

"Heydər Əliyev və Azərbaycan dövlətçiliyi" adlı kitabın ön sözü Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Milli Məclisin Elm və Təhsil Komitəsinin sədri, akademik İsa Həbibbəyli tərəfindən "Siyasi baxışla əməli addımların ifadəsi" başlığı altında yazılıb. Kitabda YAP İcra katibinin müavini, Milli Məclisin komitə sədri Siyavuş Novruzovun müxtəlif vaxtlarda dərc olunmuş "Ümummilli Lider Heydər Əliyev və müstəqillik ideyası", "Heydər Əliyev və müstəqilliyin əsaslarının yaradılması", "Heydər Əliyev və Azərbaycan Konstitusiyası", "Heydər Əliyev və Azərbaycan Konstitusiyasında insan hüquqları", "Heydər Əliyev və Azərbaycanın siyasi sistemi", "Heydər Əliyevin siyasi irsində partiya quruculuğu məsələləri", "Heydər Əliyev Azərbaycanın müasir hüquq sisteminin banisidir", "Heydər Əliyev və demokratik seçkilər", "Heydər Əliyev Şərq-Qərb dəhlizinin yaradıcısıdır", "Cənubi Qafqazın Avrasiyaya inteqrasiyasında Heydər Əliyev siyasəti", "Azərbaycan Avroatlantik məkanda", "Azərbaycanın qloballaşan dünyada mövqelərinin möhkəmlənməsi", "Uğurlu inkişaf strategiyası", "Azərbaycanda multikulturalizmin tarixi-ictimai ənənələri", "Azərbaycan multikulturalizmin və islam həmrəyliyinin mərkəzi kimi" adlı məqalələri yer alıb.

Heydər Əliyev irsinin dərindən tədqiqi üçün mötəbər elmi mənbə olan kitabda Azərbaycanın zəngin dövlətçilik tarixində müstəsna yerə malik olan Ulu Öndərin xalqımız qarşısında əvəzsiz xidmətlərindən bəhs edilib. Xalqımızın gələcək taleyinin müəyyənləşdirilməsi baxımından Heydər Əliyev epoxasının bənzərsiz olduğunun vurğulandığı kitabda diqqətə çatdırılıb ki, əsl vətəndaş, tarixi şəxsiyyət və Ümummilli Lider kimi Heydər Əliyev millətini, torpağını fəlakətdən qurtarıb, onu çevriliş, qiyam cəhdlərindən hifz edərək dirçəliş və inkişafa doğru yönəldib, cəmiyyətdə özünəinam hissini bərpa edib, ölkəmizdə sabitlik və firavanlığa təminat yaradıb.

"Heydər Əliyev və Azərbaycan dövlətçiliyi" adlı kitabda, həmçinin ölkəmizdə müasir hüquqi və siyasi sistemin yaradılmasında Ulu Öndərin misilsiz xidmətlərindən bəhs olunub. Kitabda əksini tapan məsələlərdən biri də Azərbaycan dövlətinin memarı və qurucusu olan Ulu Öndər Heydər Əliyevin uğurlu dövlət quruculuğu prosesinin əsasını qoymasıdır. Bunun Azərbaycanın müasir müstəqil dövlət kimi inkişafı baxımından çox mühüm əhəmiyyətə malik olduğu bildirilib. Təkmil siyasi sistemin, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesinin, siyasi mədəniyyətin əsasının qoyulması, davamlı və səmərəli siyasi-hüquqi islahatların həyata keçirilməsi, eyni zamanda, milli həmrəylik və bütövlüyü təmin edən ideologiyanın yaradılması da xüsusi vurğulanıb. Bununla yanaşı, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin fonunda ölkənin siyasi-hüquqi sistemində müsbət mənada əsaslı dəyişikliklərin olması, müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi, məhkəmə islahatlarının həyata keçirilməsi, Konstitusiya Məhkəməsinin və digər mühüm təsisatların yaradılması, vətəndaş cəmiyyətinin bərqərar edilməsi, dövlətin hüquqi əsaslarının gücləndirilməsi, müasir dövlətçilik sisteminin bərqərar edilməsi kimi məsələlər də oxucuların diqqətinə çatdırılıb.

YAP İcra katibinin müavini, Milli Məclisin komitə sədri Siyavuş Novruzovun "Heydər Əliyev və Azərbaycan dövlətçiliyi" adlı kitabında Heydər Əliyevin siyasi irsində partiya quruculuğu məsələsi də geniş şəkildə öz əksini tapıb. Xüsusilə də, Ulu Öndər Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının yaranması və fəaliyyətinə xüsusi nəzər salınıb. Yeni Azərbaycan Partiyasının ötən dövr ərzində Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsində, milli dövlətçiliyimizin əsaslarının gücləndirilməsində, inkişafa, sabitliyə, tərəqqiyə xidmət edən milli məqsədlərin reallaşdırılmasında və yeni hədəflərin müəyyənləşdirilməsində misilsiz xidmətlər göstərdiyinin vurğulandığı kitabda YAP-ın bu cür ali məramlı fəaliyyəti ilə ümumxalq partiyasına çevrildiyi bildirilib.




Azərbaycanın Ümummilli Lider Heydər Əliyevin ideyaları əsasında inkişaf etdiyinin, ölkəmizin ötən müddət ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm inkişaf yolu keçdiyinin, bütün sahələrdə mühüm nailiyyətlərin əldə edildiyinin vurğulandığı kitabda həmçinin diqqətə çatdırılıb ki, ölkəmizin hərtərəfli inkişafı, verilən hər bir vədin konkret əməli işdə öz təsdiqini tapması xalq-iqtidar birliyini daha da möhkəmləndirib, vətəndaşların Prezident İlham Əliyevin ətrafında sıx birləşməsini təmin edib. "Ulu Öndərimizin möhkəm təməllər üzərində həyata keçirdiyi müstəqil dövlət quruculuğu Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə çox uğurla davam etdirilir. Müstəqil dövlət quruculuğunun əsas amillərindən biri dövlətin iqtisadi qüdrətinin artırılması, əhalinin sosial rifah halının yaxşılaşdırılmasıdır. Dövlətimizin başçısı İlham Əliyevin Azərbaycanın sosial-iqtisadi inkişafı ilə bağlı imzaladığı fərmanlar, Onun sərəncamı ilə təsdiq olunmuş regional inkişafa dair Dövlət Proqramı ölkəmizin hərtərəfli inkişafına güclü təkan verib. Təsadüfi deyil ki, 2003-cü il prezident seçkilərindən sonra iqtisadi siyasətin yeni prioritetləri, inkişaf perspektivləri müəyyənləşdirilmişdir. Bu istiqamətdə konsepsiya işlənib hazırlanmış, konkret dövlət proqramları qəbul olunmuşdur. Uğurlarımız isə göz qabağındadır",-deyə kitabda vurğulanıb. Bildirilib ki, Prezident İlham Əliyevin ötən illər ərzində gördüyü işlər və hazırkı fəaliyyəti deməyə əsas verir ki, O, Heydər Əliyevin parlaq ideyalarının sadəcə davamçısı yox, eyni zamanda, bu ideyaları XXI əsrin tələblərinə, dövrün, zamanın ruhuna uyğun olaraq təkmilləşdirməyə və inkişaf etdirməyə qadir olan bir liderdir.

## "QURTULUŞDAN BAŞLAYAN TƏRƏQQİ"

Nəfis tərtibatda çap olunan, redaktorunun Azərbaycan Respublikasının Milli Məclisinin sədrinin birinci müavini, professor Ziyafət Əsgərov olduğu "Qurtuluşdan başlayan tərəqqi" adlı kitabda isə Ümummilli Lider Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərindən, Azərbaycanın siyasi palitrasında milli siyasi iradəni təmsil edən, ümumxalq partiyası olan Yeni Azərbaycan Partiyasının keçdiyi zəngin və şərəfli inkişaf yolundan, Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasətdən bəhs edən müsahibələr toplanıb. Kitabın ön sözü Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycanda Atatürk Mərkəzinin direktoru, akademik Nizami Cəfərov tərəfindən "Qurtuluşdan başlayan tərəqqinin təntənəsi" başlığı altında yazılıb. Siyavuş Novruzovun "Qurtuluşdan başlayan tərəqqi" adlı kitabındakı müsahibələr dörd bölmədə təqdim edilib. Birinci bölmədə müsahibələr "Ümummilli Lider Heydər Əliyevin ideyaları yaşayır" başlığı altında toplanıb.

"Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu Azərbaycançılıq ideologiyası özündə multikultural dəyərləri də birləşdirir" adlı birinci müsahibədə müasir dövrdə sivilizasiyalararası dialoqun, multikulturalizm dəyərləri və tolerantlıq ənənələrinin təbliği və təşviqinin əhəmiyyətindən, bu sahədə Azərbaycanın mütərəqqi təcrübəsindən bəhs edilib. Qeyd edilib ki, dövrümüzün mühüm çağırışlarından olan multukultralizmin Azərbaycanda tarixən formalaşmış zəngin ənənələri və möhkəm ictimai dayaqları mövcuddur. Qarşıda duran vəzifə bu hərtərəfli potensialı Azərbaycan dövlətçiliyinin inkişaf və tərəqqisinin vacib elementinə çevirmək, sahib olduğumuz təcrübəni regional və qlobal məkanda uğurla paylaşmaqdır. Müsahibədə, həmçinin Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu Azərbaycançılıq ideologiyasının əhəmiyyətindən danışılıb, dövlətçilik maraqlarına xidmət edən bu ideologiyanın özündə multikultural dəyərləri də birləşdirdiyi diqqətə çatdırılıb.

"Azərbaycan Ümummilli Lider Heydər Əliyevin ideyaları əsasında inkişaf edir" adlı ikinci müsahibədə isə Ulu Öndər Heydər Əliyevin xalqımızın çoxəsrlik dövlətçilik tarixində müstəsna yeri və rolundan geniş bəhs edilib. Ümummilli Lider Heydər Əliyevin siyasi fəaliyyətinin bütün dövrlərinə nəzər yetirilən müsahibədə Ulu öndərin zəngin siyasi və dövlətçilik irsinin öyrənilməsinin, gələcək nəsillərə çatdırılmasının əhəmiyyəti diqqətə təqdim edilib.

Ardı Səh. 7

# Müasir Azərbaycan Ümummilli Liderin ideyaları əsasında inkişaf edir

Əvvəli-Səh-6

Vurğulanıb ki, zəmanəmizin ən dahi şəxsiyyətlərindən biri, xalqımızın böyük oğlu Heydər Əliyevə məhz öz millətinin qəlbində və onun çoxəsrlik tarixində müqəddəslik zirvəsinə yüksəlmək səadəti nəsib olub. Heydər Əliyev kimi xalqına hədsiz bağlı olan şəxsiyyətlərin ömrü onun yaşadığı illərlə ölçülmür. Öz millətinin taleyini yaşamış Heydər Əliyev indi də, gələcəkdə də qədirbilən xalqımızın qəlbində yaşayır və daim yaşayacaqdır.

"Qurtuluşdan başlayan tərəqqi və yüksəliş sonrakı dövrdə Azərbaycanın müstəqil dövlət kimi sürətli inkişafını təmin etdi" adlı üçüncü müsahibədə isə 15 İyun - Milli Qurtuluş Gününün dövlətçilik tariximizdəki rolundan, əhəmiyyətindən geniş söz açılıb, Azərbaycanı xaos və tənəzzüldən xilas edən Ümummilli Lider Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi 1993-2003-cü illərin sabitlik və inkişaf dövrü kimi başlıca səciyyəvi xüsusiyyətləri diqqətə çatdırılıb. Vurğulanıb ki, 1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi, ölkədə davam edən gərginlik və qarşıdurma səngidi, respublikamız vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas oldu: "Beləliklə, bu mühüm tarixi gün xalqımızın yaddaşına Milli Qurtuluş Günü kimi daxil oldu. Milli Məclisin 1993-cü il iyunun 15-də keçirilən iclasındakı çıxışında Ulu Öndər Azərbaycan dövlətçiliyinin gələcək inkişaf strategiyasını elan etdi və sonrakı illərdə onu həyata keçirdi. Əgər müstəqilliyi qazanmaq ilkin şərt idisə, ikinci vacib məsələ onu qoruyub saxlamaq etdirmək idi və bu, Ümummilli Liderin iradəsi sayəsində reallığa çevrildi. Ulu Öndər Heydər Əliyev milli dövlətçiliyimizin konsepsiyasını yaratdı. Qısa müddətdə ölkədə ictimai-siyasi sabitlik bərpa olundu. Ümummilli Lider Heydər Əliyevin 1993-cü il iyunun 15-də Azərbaycanda hakimiyyətə qayıdışı dövlətçilik tariximizin şanlı qürur səhifəsini təşkil edir. Qədirbilən xalqımız böyük xilaskarının xidmətlərini unutmur və 15 İyun - Milli Qurtuluş Gününü hər il yüksək əhval-ruhiyyə ilə qeyd edir".

"Ulu Öndər Heydər Əliyev ölkəmizi Azərbaycan Xalq Cümhuriyyətinin taleyini yaşamaq təhlükəsindən xilas etdi" adlı müsahibədə isə Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik tariximizdəki roluna nəzər yetirilib, Cümhuriyyət parlamentinin fəaliyyətinin, ümumiyyətlə, həmin dövrdə qəbul edilmiş qanun və qərarların önəmi diqqətə çatdırılıb. Xalq Cümhuriyyətinin varisi olan müstəqil Azərbaycan Respublikasının keçdiyi inkişaf yolu siyasi təhlil predmetinə çevrilib. Qeyd edilib ki, bu gün Azərbaycan postsovet məkanında inkişaf dinamikasına görə ön sırada yer alan ölkələrdəndir ki, bunun da əsasında Ümummilli Liderin təməlini qoyduğu inkişaf siyasəti dayanır.




İkinci bölmədə isə müsahibələr "Möhkəm təmələ əsaslanan siyasətin təntənəsi" başlığı altında toplanıb. Burada "Yeni hədəflər ölkənin davamlı inkişaf strategiyasının mahiyyətindən qaynaqlanır", "Xalq Azərbaycanda inkişaf və sabitliyin davamlı olması üçün cənab İlham Əliyevi dəstəkləyir", "Azərbaycan reallıqları: möhkəm təmələ əsaslanan siyasətin təntənəsi", "Azərbaycan reallıqlarının Davos Dünya İqtisadi Forumu kimi mötəbər tribunadan səsləndirilməsi müstəsna əhəmiyyətə malikdir", "Qazanılan uğurların əsasında Prezident İlham Əliyevin həyata keçirdiyi düşünülmüş, məqsədyönlü siyasət dayanır", "2017-ci ilin Prezident İlham Əliyev tərəfindən "İslam həmrəyliyi ili" elan olunması vaxtında qəbul olunmuş və zamanın çağırışlarına cavab verən addımdır", "Prezident İlham Əliyevin həyata keçirdiyi düşünülmüş, məqsədyönlü siyasət iqtisadi uğurların əsasıdır" adlı müsahibələr yer alıb. Bu bölmədə Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu siyasəti uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən səmərəli daxili və xarici siyasətin uğurlu nəticələrindən, Azərbaycanın beynəlxalq münasibətlər sistemində uğurla təmsil olunaraq mühüm nailiyyətlər əldə etməsindən, ölkəmizin beynəlxalq sülh, təhlükəsizlik və əməkdaşlığa xidmət edən mühüm qlobal təşəbbüslərindən, o cümlədən 2017-ci ilin dövlətimizin başçısı tərəfindən "İslam həmrəyliyi ili" elan olunmasının əhəmiyyətindən bəhs edilib, mühüm analitik qənaətlər diqqətə çatdırılıb.

"Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır" başlığı altında toplanmış müsahibələrdə isə ümumxalq və qələbələr partiyası olan YAP-ın yaranmasından, ölkənin siyasi həyatında uğurlu iştirakından, səmərəli beynəlxalq əlaqələrindən, xalqımızın Yeni Azərbaycan Partiyasına seçkilərdə yüksək etimad və dəstəyinin əsasında duran amillərdən söhbət açılıb. Vurğulanıb ki, zəngin və şərəfli inkişaf yoluna malik olan Yeni Azərbaycan Partiyasının ötən müddət ərzində ümumxalq partiyasına çevrilərək möhtəşəm nailiyyətlər əldə etməsi təsadüfi xarakter daşımır. "Hər şeydən əvvəl, Yeni Azərbaycan Partiyası milli maraqlara xidmət edən çoxşaxəli və səmərəli fəaliyyəti ilə Azərbaycan cəmiyyətinin bütün təbəqələrindən olan insanları öz sıralarında birləşdirib. Monolit və avanqard siyasi qüvvə kimi Azərbaycanın dinamik inkişafına öz layiqli-dəyərli töhfələrini verən Yeni Azərbaycan Partiyasının ümumxalq partiyası olmasını göstərən ən mühüm amillərdən biri onun öz sıralarında dilindən, dinindən, etnik mənşəyindən asılı olmayaraq bütün insanları birləşdirməsidir. Bu, partiyamızın yüksək nüfuzunu əks etdirən başlıca göstəricilərdəndir",-deyə diqqətə çatdırılıb. Vurğulanıb ki, Yeni Azərbaycan Partiyası güclü liderin ətrafında yaranmış partiyadır: "Partiyanın yarandığı dövrə nəzər salanda görürük ki, zəngin dövlətçilik və idarəetmə təcrübəsinə malik olan, ömrünü və bütün fəaliyyətini Öz xalqına və dövlətinə xidmətə həsr edən bir şəxsiyyətin - Ümummilli Lider Heydər Əliyevin Yeni Azərbaycan Partiyasına rəhbərlik etməsi partiyamıza olan inam, etimad və dəstəyi artırırdı. YAP-ın fəaliyyəti Heydər Əliyev siyasi xətti olaraq qəbul edilirdi. Bu səbəbdən YAP qısa müddət ərzində ümumxalq partiyasına çevrildi, Azərbaycanın tərəqqisinə xidmət edən fəaliyyətini uğurla davam etdirərək ölkəmizin möhtəşəm nailiyyətlər əldə etməsinə fundamental töhfələr verdi. Bu gün də partiyamiz öz fəaliyyətini Ümummilli Lider Heydər Əliyevin ideyaları əsasında davam etdirir. Başqa sözlə, Yeni Azərbaycan Partiyası Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin Sədrliyi ilə öz fəaliyyətini müvəffəqiyyətlə davam etdirir, qatıldığı bütün seçkilərdə parlaq qələbələr qazanır. Bu gün Azərbaycanda YAP-a rəqib ola biləcək hər hansı bir siyasi qüvvə mövcud deyil. Ümummilli Liderimiz Heydər Əliyevin qeyd etdiyi kimi, Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır".

"Konstitusiya islahatları müasir dövrün tələbidir" başlığı altında toplanmış müsahibələrdə konstitusiya islahatlarının milli qanunvericilik bazasının zənginləşdirilməsi, idarəetmədə çeviklik və effektivliyin artırılması və digər istiqamətlər üzrə əhəmiyyəti vurğulanıb. Qeyd olunub ki, Konstitusiya islahatlarının tətbiqi ilə Azərbaycanın müasir inkişaf tarixinin yeni səhifəsi yazılır. Bununla yanaşı, bəhs olunan bölmədə Azərbaycanda ordu quruculuğu istiqamətində həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlərin uğurlu nəticələrindən, dostluq, qardaşlıq və strateji tərəfdaşlığa söykənən Azərbaycan-Türkiyə münasibətlərinin bütün sahələrdə müvəffəqiyyətlə inkişaf etməsindən, əlaqələrin bu gün ən yüksək zirvədə olmasından söhbət açılıb.

### "XALQLA İQTİDAR BİRLİYİ"

YAP İcra katibinin müavini, Milli Məclisin komitə sədri Siyavuş Novruzovun "Xalqla iqtidar birliyi" adlı kitabında isə müasir Azərbaycanın siyasi, ictimai, sosial, iqtisadi həyatı ilə bağlı müxtəlif xəbər agentliklərinə verilmiş 160-a yaxın müsahibə toplanıb. Həmin müsahibələr "Humanizm Heydər Əliyev siyasətinin əsasıdır", "Müasir Azərbaycan Heydər Əliyevin şah əsəridir", "Yeni Azərbaycan Partiyasının təməli möhkəm və əzəmətlidir", "Qanun hər şeydən üstündür", "Azərbaycan heç bir dövlətə kiçik qardaşlıq etmək fikrində deyil", "Azərbaycan Cənubi Qafqazda ən güclü orduya malikdir", "Azərbaycan dünyaya nümunədir", "İqtisadiyyatımız uğurla inkişaf edir", "Sosial sahədə uğurlar təqdirəlayiqdir", "Azərbaycanda müxalifət qocalıb" adlı 10 bölmədə təqdim olunub. Elmi redaktorunun Azərbaycan Respublikasının Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin sədri, YAP İcra katibinin müavini, tarix üzrə fəlsəfə doktoru Mübariz Qurbanlı olduğu kitabın ön sözü "Xalqla iqtidarın birliyi sabitliyin qarantıdır" başlığı altında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, YAP İdarə Heyətinin üzvü, iqtisadi elmlər doktoru, professor Eldar İbrahimov tərəfindən yazılıb.

Bəhs olunan kitabda yer alan müsahibələrdə Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu inkişaf siyasəti nəticəsində Azərbaycanın müstəqil dövlət kimi tərəqqi yolunda inamla irəliləməsindən, beynəlxalq münasibətlər sistemində uğurla təmsil olunmasından geniş bəhs edilib. "Xalqla iqtidar birliyi" adlı kitabda, həmçinin Ulu Öndərin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasətin bütün sahələrdə inkişafa və yüksəlişə səbəb olduğu diqqətə çatdırılıb, siyasi, hüquqi, sosial, iqtisadi, mədəni və digər istiqamətlərdə reallaşdırılan məqsədyönlü və kompleks islahatların səmərəli nəticələrinin Azərbaycanın qüdrətinin daha da artmasına xidmət etdiyi vurğulanıb. YAP İcra katibinin müavini, Milli Məclisin komitə sədri Siyavuş Novruzovun "Xalqla iqtidar birliyi" adlı kitabında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın çoxşaxəli və səmərəli fəaliyyətindən də söhbət açılıb. Bildirilib ki, Azərbaycan qadınının müdriklik, ləyaqət və nəciblik kimi ən ali xüsusiyyətlərinin daşıyıcısı olan Mehriban xanım Əliyeva Prezident İlham Əliyevə bir nömrəli dayaqdır. O da vurğulanıb ki, Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu Ümummilli Liderimizin siyasi xəttinə sadiq qalaraq humanist addımlarını davam etdirir.

Yeni Azərbaycan Partiyasının təməlinin möhkəm və əzəmətli olduğunun vurğulandığı kitabda nəzərə çatdırılıb ki, bu gün ölkəmizin ən güclü, ən mütəşəkkil, ən monolit siyasi qüvvəsi olan YAP Azərbaycan xalqına uzun illər xidmət göstərəcək və yeni-yeni nailiyyətlərə imza atacaq. Bundan başqa, kitabda Azərbaycanın milli maraqlara əsaslanan, çoxvektorlu və praqmatik xarici siyasətindən, ikitərəfli və çoxtərəfli münasibətlərini, beynəlxalq təşkilatlar çərçivəsində əlaqələrini uğurla davam etdirməsindən bəhs edilib. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Azərbaycan qətiyyətli - prinsipial mövqeyi və ordu quruculuğu istiqamətində həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər diqqətə təqdim olunub.

Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi islahatların əhəmiyyəti və nəticələri də kitabda öz əksini tapıb. Azərbaycan xalqının Prezident İlham Əliyevin ətrafında sıx birləşdiyi, ölkəmizdə möhkəm ictimai-siyasi sabitlik və vətəndaş həmrəyliyinin mövcud olduğu vurğulanıb. Bundan başqa, kitabda anti-Azərbaycan dairələrin və onların direktivləri əsasında hərəkət edən radikal müxalifətin ölkəmizə qarşı "qara piar" kampaniyası apardıqları, Azərbaycanda sabitliyin pozulmasının tərəfdarı olduqları vurğulanıb, müxtəlif faktlar və məqamlar nəzərə çatdırılıb. Müəllif vurğulayıb ki, Azərbaycanda xalq-iqtidar birliyinin qarşısını heç kim ala bilməyəcək.

Bütövlükdə, YAP İcra katibinin müavini, Milli Məclisin İctimai Birliklər və Dini Qurumlar Komitəsinin sədri Siyavuş Novruzovun "Heydər Əliyev və Azərbaycan dövlətçiliyi", "Qurtuluşdan başlayan tərəqqi" və "Xalqla iqtidarın birliyi" adlı kitabları ölkəmizin müstəqillik illərində keçdiyi şərəfli və çoxsaylı nailiyyətlərlə zəngin olan tərəqqi yolunun, Azərbaycanın dövlətçilik tarixində Heydər Əliyev şəxsiyyətinin müstəsna yerinin və rolunun, Ümummilli Liderin xalqımız qarşısında tarixi əhəmiyyətə malik olan əvəzsiz xidmətlərinin, Prezident İlham Əliyevin rəhbərliyi ilə milli maraqlara və müasir qlobal çağırışlara uyğun həyata keçirilən inkişaf siyasətinin əsaslarının öyrənilməsi baxımından olduqca mühüm əhəmiyyətə malikdir. Qeyd edək ki, filologiya üzrə elmlər doktoru, professor Məmmədəli Qıpçaq "Elm və Təhsil" nəşriyyatında çap olunan hər 3 kitabın redaktorlarındandır.

*Nurlan QƏLƏNDƏRLİ*

# Ulu Öndər Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı misilsiz xidmətləri hər zaman minnətdarlıqla xatırlanacaq

**- Bahar xanım, mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü tamam olur. Fəaliyyəti XX əsr Azərbaycan tarixinə qızıl hərflərlə yazılmış Heydər Əliyev dühasının Azərbaycan xalqı qarşısında göstərdiyi xidmətləri necə qiymətləndirə bilərsiniz?**

- Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının yetişdirdiyi elə bir tarixi şəxsiyyətdir ki, Onun haqqında danışanda yalnız həyatı və fəaliyyəti barədə deyil, dövlət idarəçiliyində təmsil olunduğu və Azərbaycan xalqının mühüm tarixi dövrünü əhatə edən bütöv bir qərinədən bəhs etmək lazım gəlir. Ona görə ki, Ümummilli Lider Heydər Əliyev bütün ömrünü mənsub olduğu xalqa, onun inkişafına, minilliklərin süzgəcindən keçib gələn milli-mənəvi dəyərlərin qorunması, inkişaf etdirilməsi və gələcək nəsillərə çatdırılmasına həsr edib.

Birmənalı şəkildə demək olar ki, Ümummilli Lider Heydər Əliyev Azərbaycan dövləti və xalqı qarşısında misilsiz xidmətlər göstərib. Onun xidmətləri tarixin yaddaşına qızıl hərflərlə yazılıb və bundan sonra mövcud ola biləcək digər siyasi ideologiyalar və ya siyasətçilər bu xidmətləri şübhə altına ala, onlara kölgə sala bilməyəcəklər. Buna cəhd göstərsələr belə, uğursuzluğa düçar olacaqlar.

Heç şübhəsiz, qətiyyətlə demək olar ki, Heydər Əliyev Azərbaycan xalqının yetişdirdiyi ən böyük dühalardan biridir. O öz fəaliyyəti ilə təkcə böyük şəxsiyyət olduğunu nümayiş etdirməyib, həm də malik olduğu qətiyyət və siyasi iradə sayəsində mənsub olduğu xalqı və qurduğu dövləti dünya miqyasında tanıda bilib. Ona görə də hesab edirəm ki, Azərbaycan xalqı yaşadıqca onun şüurunda, təfəkküründə və yaddaşında Ulu Öndərin özünəməxsus yeri olacaq. Onun xidmətləri zaman-zaman müzakirə predmeti, araşdırma və tədqiqat obyekti olacaq. Gələcək nəsillər, o cümlədən Heydər Əliyev irsinə müraciət edən şəxslər bu irsin zəngin çalarlarını və bütün tərəflərini üzə çıxarmaqla yanaşı, bu şəxsiyyətin zəngin irsindən bəhrələnəcəklər. Ən nəhayət, Ümummilli Lider Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı misilsiz xidmətləri hər zaman minnətdarlıqla xatırlanacaq.

**- Azərbaycana rəhbərliyinin birinci dövründə mərkəzi hakimiyyətin bütün təzyiq və əngəllərinə rəğmən, Ulu Öndər Heydər Əliyevin xalqının gələcəyi naminə atdığı tarixi addımlar və gördüyü mühüm işlərdən, onların əhəmiyyətindən bəhs etməyinizi xahiş edirik.**

- Azərbaycan Sovet İttifaqının tərkibinə daxil olanda birliyin suveren hüquqa malik müttəfiq respublikası olsa da, tam müstəqillikdən danışmaq qeyri-mümkün idi. Buna baxmayaraq, Ulu Öndər sovet dövründə Azərbaycanın birinci şəxsi olanda atdığı bəzi addımlarla məhdud çərçivədəki hüquqlardan maksimum yararlanmaq şansını əldən vermədi, hətta bu yöndə müəyyən dərəcədə uğurlar əldə etdi. Məsələn, Azərbaycan dilinin Azərbaycanın 1978-ci il Konstitusiyasında dövlət dili kimi rəsmiləşdirilməsi, təhsil və elm sahəsində ana dilimizdə nəşrlərin sayının artması bunlara misal ola bilər.



*Milli Məclis sədrinin müavini, YAP İdarə Heyətinin üzvü Bahar Muradovanın yap.org.az-a müsahibəsi*

Digər tərəfdən, ittifaq imkanlarının bütün parametrləri ilə respublikanın inkişafına yönəldilməsi Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, Onun rəhbərlik etdiyi dövrdə Azərbaycan inkişaf etmiş sənaye potensialına malik respublikaya çevrildi. Bu zaman ittifaqın tələblərini yerinə yetirməklə yanaşı, ittifaqa göndərilən məhsulların çox hissəsinin Azərbaycana investisiya və maliyyə qismində geri qaytarılması, ayrı-ayrı sənaye sahələrinin yaradılması vasitəsilə xalqın bütün potensialını inkişafa yönəltməklə genişmiqyaslı tərəqqinin təməli atıldı.

Həmin dövrdə o vaxta qədər Azərbaycanda mövcud olmayan və çatışmayan kadrların yetişdirilməsi, bir çoxlarının ittifaq təhsil müəssisələrinə göndərilməsi gələcəyə hesablanmış addımlar idi. Eyni zamanda hərbi sahədə kadrların yetişdirilməsi üçün Ulu Öndər böyük işlər görüb. Bakıda C.Naxçıvanki adına hərbi məktəbin yaradılması, ittifaqın hərbi kadrlar hazırlayan ali məktəblərinə azərbaycanlıların göndərilməsi də məhz həmin uzaqgörən siyasətin nəticəsi idi. Zaman da göstərdi ki, həmin hərbi kadr potensialı olmasaydı, Qarabağ uğrunda gedən müharibədə Azərbaycan qoşunlara rəhbərlik etməyə zabit və komandirlər tapa bilməzdi. Ona görə də bu addımları birmənalı şəkildə müstəqilliyin bünövrəsi hesab etmək olar.

Digər bir məqam o idi ki, Azərbaycanda hakimiyyətinin birinci dövründə Heydər Əliyev mərkəzdən olan təzyiq və maneələrə baxmayaraq, xalqın yetişdirdiyi milli təfəkkürlü elm, təhsil və mədəniyyət xadimlərini, o cümlədən ziyalıları qoruyurdu. Bu da sübut edir ki, O təkcə Azərbaycanın sərvətlərinin, iqtisadiyyatının inkişafına deyil, xalqın yetişdirdiyi ziyalılara da diqqət və qayğı göstərirdi. Məhz həmin ziyalılar da 80-ci illərin sonu və 90-cı illərin əvvəllərində mərkəzdənqaçma meyillərinin gücləndiyi vaxtda Azərbaycanda yeni ictimai-siyasi təfəkkürün formalaşmasında, ictimai şüurda dəyişikliyin yaranmasında iştirak edən potensiala çevrildilər.

Təbii ki, həmin potensial olmasaydı, ermənilərin separatizm meyillərinə qarşı xalqın kütləvi müqavimətini təşkil etmək mümkün olmazdı. Yəni xalqın milli özünüdərkinin oyanmasında məhz Heydər Əliyevin Azərbaycanda birinci hakimiyyəti dövründə yürütdüyü siyasət dayanırdı. Sonradan bu özünüdərk Ümummilli Liderin Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıtması və müstəqil dövlət qurmaq imkanı və bu yöndə məqsədlərin reallaşması üçün istifadə edildi.

**- Bahar xanım, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev yüksək postdan istefaya getdikdən bir neçə il sonra Azərbaycana qayıtdı və Bakıda yaşamağa imkan verilmədiyi üçün Naxçıvana getdi. Ümummilli Liderin Naxçıvan Muxtar Respublikasına rəhbərlik etdiyi dövrdə də xalqımız qarşısında tutduğu vəzifənin hüdudlarını aşan misilsiz xidmətlər göstərib. Hətta Yeni Azərbaycan Partiyasının yaranması da həmin dövrə təsadüf edib. Ulu ÖndərinNaxçıvandakı fəaliyyəti barədə fikirlərinizi bizimlə bölüşməyinizi istərdik.**

- SSRİ rəhbərliyindən istefasından sonra Heydər Əliyevin Azərbaycana qayıtmasına imkan verməbilər, hətta həyatı üçün təhlükənin mövcud olduğunu belə nəzərə almadan respublika rəhbərliyi tərəfindən onun ölkədən kənarda saxlanmasına cəhdlər göstərilirdi. 1990-cı ildə Ümummilli LiderAzərbaycana qayıtsa da, Bakıda qalmasına imkan verilmədi. Onun həmin vaxt mərkəzi hakimiyyətdə və respublika rəhbərliyində kifayət qədər yaxından tanıyan şəxslər tərəfindən müdafiə edilməməsi Naxçıvana getməsini şərtləndirirdi. Əslində mövcud vəziyyət Onun üçün ağrılı bir məqam idi. Parlamentdə çıxışı zamanı və digər məsələlərdə ona qarşı göstərilən ədalətsizlik onun incik düşməsinə kifayət qədər haqq qazandırırdı. Lakin Heydər Əliyev sınmadı və o vaxt doğma Naxçıvan ona dəstək və dayaq oldu.

Digər tərəfdən, müharibə, iqtisadi böhran şəraitində yaşayan naxçıvanlılar Ulu Öndərə özlərinin nicatı və son ümid yeri kimi baxırdılar. Buna görə də Ümummilli Lideri 1990-cı il iyulun 22-də şəhərin mərkəzi meydanına toplaşan 80 min insan böyük coşqu ilə qarşıladı. Çünki blokadada olan muxtar respublika əhalisi həm də erməni təcavüzü ilə qarşı-qarşıya idi. Məhz bu səbəbdən Ulu Öndərin Naxçıvanın təhlükəsizliyinin təmin edilməsi üçün atdığı addımlar muxtar respublikanın gələcək taleyində vacib rol oynadı. Üç tərəfdən düşmən əhatəsində qalan, ümumiyyətlə, dünyadan tamamilə təcrid edilən muxtar respublikanın blokadadan çıxarılması üçün Heydər Əliyev mühüm addımlar atdı. İran və Türkiyə ilə əlaqələr yaratdı, digər dövlətlərlə münasibətlər qurmaq yönündə işlər gördü.

Eyni zamanda, Heydər Əliyev yalnız muxtar respublika üçün deyil, bütün Azərbaycan üçün həyati əhəmiyyət kəsb edən, dövlət quruculuğu prosesində mühüm rolu olan qərarların qəbul edilməsinə nail oldu. Belə ki, Naxçıvan MSSR Ali Sovetinin 1990-cı il noyabrın 17-də keçirilən sessiyasında "Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilməsi haqqında", "Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında" tarixi qərarlar qəbul edildi. Ulu Öndərimizin sədrliyi ilə keçirilən həmin tarixi sessiyada ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul olundu. Həmçinin Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etdi.

Ümummilli Lider Naxçıvanda siyasi fəaliyyət göstərdiyi qısa zaman kəsiyində müstəqil, demokratik və dünyəvi dövlət yaradılması üçün siyasi və ideoloji əhəmiyyətli tarixi qərarlar qəbul etdi. Azərbaycanın müstəqil dövlət kimi sonrakı fəaliyyətinin bir sıra konseptual istiqamətləri məhz bu dövrdə işlənib hazırlandı. Beləliklə, Naxçıvanda gedən tarixi proseslər zamanı atılan addımlar müstəqilliyin bərpası üçün mühüm rol oynadı. Bütün bu cəsarətli addımlar sübut edirdi ki, Heydər Əliyevin fəaliyyəti Naxçıvanın hüdudlarına sığmır.

Yeni Azərbaycan Partiyasının (YAP) yaranması prosesinə gəlincə, həmin dövrdə ölkəmizin bütün guşələrində qəlbində Heydər Əliyevə və böyük Azərbaycana sevgi ilə yaşayan yüz minlərlə insan respublikadakı vəziyyəti yaxından izləyirdi. Bu vəziyyət yenicə müstəqillik qazanan respublikanın gələcək taleyi üçün ciddi təhlükələrin olduğunu göstərirdi. AXC-Müsavat cütlüyünün bir-birinin ardınca buraxdığı siyasi səhvlər, cinayətə bərabər əməllər Azərbaycanın müstəqilliyini sual altında qoyurdu. Getdikcə artan ziddiyyətlər və xaos insanlarda narahatlıq yaradırdı. Bütün bunlar təbii olaraq xalqın Heydər Əliyevin böyük siyasətə qayıtması arzusunun daha da alovlanmasına gətirib çıxardı. Çünki Ümummilli Liderin Naxçıvanda atdığı addımları, orada həm erməni təcavüzünün qarşısının alınması, həm də ictimai-siyasi sabitlik yaratması yönündə fəaliyyətini insanlar görür və Azərbaycanın xilası üçün ondan kömək gözləyirdilər. Bu məqamda siyasi cəhətdən kifayət qədər fəal şəxslər, o cümlədən ziyalılar həmin fəallığı məhz Azərbaycanın müstəqilliyinin qorunmasına yönəltmək üçün əsas mərkəz rolunu oynaya biləcək, müstəqilliyi şəxsi və qrup mövqeyindən üstün tuta biləcək siyasi təşkilatın yaranması və rəhbərliyində Ümummilli Lideri görmək istəyi ilə Ulu Öndərə üz tutdular. Heydər Əliyev isə bir çox müraciətlərdən sonra belə bir siyasi par-

tiyanın yaranmasını məqsədəuyğun hesab etdi və özünün də bu partiyanın rəhbərliyində təmsil olunmasına razılığını bildirdi.

Lakin o dövrdə Heydər Əliyevin adından belə ehtiyat edən Azərbaycan iqtidarı partiyanın Bakıda təsis olunmasına imkan vermədi. Çünki mövcud hakimiyyət Ulu Öndərin rəhbərliyi altında siyasi partiyanın yaranmasına icazə verilməsini özünün siyasi iflası hesab edirdi. Odur ki, bunun qarşısını almaq üçün bütün tədbirlərə əl atıldı. Buna baxmayaraq, Heydər Əliyevi özünə lider hesab edən şəxslər axın-axın Naxçıvana üz tutur və bu prosesi sürətləndirmək üçün işlər görürdülər. Ovaxtkı iqtidar Naxçıvana edilən bu səfərlərin də qarşısını almağa çalışırdı. Bu təzyiq və təsirlərə baxmayaraq, 1992-ci ilin noyabrında Yeni Azərbaycan Partiyası təsis olundu. Naxçıvanda 500 nümayəndənin iştirakı ilə keçirilən konfransda Heydər Əliyev yekdilliklə partiyanın sədri seçildi.

Bir maraqlı məqamı qeyd edim ki, məhz Ulu Öndərin özü Yeni Azərbaycan Partiyasının proqram və nizamnaməsini işləyib hazırlamışdı. Həmin proqram sənədində partiya quruculuğu, partiyanın məqsəd və məramları çərçivəsində Azərbaycanın gələcək inkişaf perspektivləri konkret olaraq qeyd olunmuşdu. Həmin proqram sonradan Azərbaycanın inkişafı üçün vacib bir sənədə çevrildi. Ümummilli Lider bu partiyanın Azərbaycanı irəliyə aparacaq siyasi güc mərkəzinə çevriləcəyinə böyük ümid bəsləyirdi. Ona görə də onun proqramında qarşıya qoyulan vəzifələr yalnız partiya fəaliyyəti üçün nəzərdə tutulmamışdı və geniş əhatə dairəsinə malik idi. Onu da qeyd edim ki, bu təsis konfransından sonra respublikanın bütün ərazilərində YAP rayon və şəhər təşkilatları yaranmağa başladı. Mən o vaxt Yasamal rayonu ərazisində bu proseslərə qoşuldum və qısa bir müddətdə insanların kütləvi şəkildə partiyaya axın etdiyinin şahidi oldum.

**- Qeyd etdiyiniz kimi, Azərbaycanda təsadüfən hakimiyyətə yiyələnmiş qüvvələr cəmi 1 il sonra 1992-ci ildə yaş senzi tətbiq edərək prezident seçilməsinə mane olduqları dahi şəxsiyyətin köməyinə möhtac oldular. Azərbaycanın dövlətçiliyinin xilası, qurtuluşu kimi dəyərləndirilən həmin dövrdə xilaskarlıq missiyasını üzərinə götürən Ulu Öndərin 1993-cü ilin iyunundan başlayan 10 illik fəaliyyətinin əsas məqamlarına toxunmağınızı xahiş edirik.**

- Əlbəttə, həmin dövrdə olduqca təhlükəli vəziyyət yaranmışdı və doğrudan da Azərbaycan parçalanmaqdan, vətəndaş müharibəsindən qurtuldu. Xalqın xilası üçün yeganə istinadgah olan Heydər Əliyevin sayəsində Azərbaycan müstəqilliyini qoruyub saxladı.

Məlum olduğu kimi, təsadüfən hakimiyyətə yiyələnən, heç bir iqtisadi və siyasi konsepsiyası, proqramı olmayan AXC-Müsavat cütlüyünün səriştəsiz fəaliyyəti dövlət quruculuğunda və dövlət idarəçiliyində, habelə xalqın müdafiə qabiliyyətini müharibə şəraitində olan Azərbaycanın təhlükəsizliyinə yönəltmək işində uğur qazanılmasını istisna edirdi. Son nəticədə müstəqillik əldə etdikdən qısa müddət sonra Azərbaycan nəinki müstəqilliyin itirilməsi, ümumiyyətlə, parçalanma təhlükəsi ilə üz-üzə qaldı. Belə bir məqamda xalqın verdiyi düzgün qərar Heydər Əliyevə müraciət olunması və təkidlə hakimiyyətə qayıtması oldu.

Ulu Öndərin hakimiyyətdə kifayət qədər mühüm posta seçilməsi bu prosesi təhlükəsiz məcraya, vətəndaş müharibəsindən xilas yoluna yönəltməyə imkan verdi. Çünki Heydər Əliyevin gəlişi Azərbaycanı vətəndaş qarşıdurmasından xilas etdi, qısa müddətdə ölkədəki separatçı qüvvələrin fəaliyyətinə son qoyuldu. Tarix də göstərdi ki, həmin qərar Azərbaycan xalqının və dövlətinin sonrakı taleyinin həllində, dövlətçiliyinin bünövrəsinin qoyulmasında əsas amil kimi çıxış edib.

Burada mühüm məqamı qeyd etmək istərdim ki, Azərbaycan Prezidenti seçildikdən sonra Ümummilli Liderin birbaşa xalqa müraciəti və bundan sonra könüllü olaraq kütləvi şəkildə cəbhəyə yollanan vətən övladlarının qəhrəmanlığı sayəsində Azərbaycan Ordusunun 1994-cü ilin yanvarında həyata keçirdiyi Horadiz əməliyyatı ilə Füzuli rayonunun 22 kəndi və 1 qəsəbəsi işğaldan azad olundu. Nəticədə düşmən atəşkəsə razı oldu və əldə olunan atəşkəsdən sonra Azərbaycan dövlət quruculuğu mərhələsinə qədəm qoydu.

Bundan sonra ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi, iqtisadi tənəzzüldən xilas edilməsi, daxili ictimai-siyasi sabitliyin təmin olunması və xarici siyasətinin müəyyənləşdirilməsi istiqamətində mühüm işlər görüldü. Bu da keçmiş iqtidarın fəaliyyəti nəticəsində ölkənin düşdüyü siyasi blokadadan, izolyasiyadan qurtulmaq üçün zəmin yaratdı. Ümummilli Lider keçmiş hakimiyyətin yanlış siyasəti nəticəsində münasibətlərin gərgin olduğu region dövlətləri ilə, habelə dünya siyasətində həlledici rola malik böyük güclərlə əməkdaşlığın mümkün olmasını sübut etdi.

Bütün bunlar da Azərbaycanın siyasi və iqtisadi potensialı yüksək olan bir dövlət kimi formalaşmasına, hətta dünyanın aparıcı dövlətləri ilə tərəfdaş qismində çıxış etməsinə imkan yaratdı. Azərbaycanın bu mövqeyə çıxması onun gələcək təhlükəsizliyinin qarantı olan münasibətlərin qurulması, bu kontekstdə beynəlxalq əhəmiyyətli layihələrin həyata keçirməsində milli maraqların qətiyyətlə təmin olunması baxımından mühüm tarixi əhəmiyyət daşıyır.

Ulu Öndərin hakimiyyətə yenidən qayıdışından dərhal sonra qanunvericilik sahəsində islahatlar aparıldı, müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul edildi, ilk parlament seçkiləri keçirildi, gənclər siyasəti, mədəniyyət, idmanın inkişafı sahəsində addımlar atıldı. Ümummilli Lider Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyini xilas etməklə yanaşı, ölkəmizdə yaşayan bütün xalqların və millətlərin hüquqlarının təminatçısı olduğunu sübuta yetirdi. Bununla da əsl vətəndaş cəmiyyətinin qurulmasına zəmin yaratdı. O, həmçinin xaricdə Azərbaycan diasporunun formalaşdırılmasına, dünya azərbaycanlılarının vahid azərbaycançılıq ideologiyası ətrafında birləşdirilməsinə nail oldu.

Azərbaycan müstəqillik tarixinin Heydər Əliyevin hakimiyyətinə təsadüf edən həmin 10 illik dövrü Ulu Öndərin Azərbaycan xalqını ağır vəziyyətdən çıxararaq uğura qovuşdurması, müstəqilliyinin, eyni zamanda bu müstəqilliyin dönməzliyinin, əbədiliyinin təmin olunması ilə yadda qalır.

Ümummilli Liderin hakimiyyəti dövründə Azərbaycan Respublikası beynəlxalq təşkilatların bərabər hüquqlu üzvünə çevrildi. Azərbaycanın daha uğurlu beynəlxalq əhəmiyyətli layihələrin təşəbbüskarı kimi çıxış etməsi, bəzilərinin həyata keçirilməsi və digərlərinin də əsasının qoyulması Ulu Öndərin adı ilə bağlıdır. Azərbaycan nəinki öz təbii ehtiyatlarının, digər dövlətlərin də enerji ehtiyatlarının Azərbaycandan keçməklə dünya bazarına çıxaracaq beynəlxalq əhəmiyyətli layihələrə imza atdı. Yeni neft və qaz yataqlarının işlənməsi üçün xarici dövlətlərin nüfuzlu şirkətləri ilə müqavilələr imzaladı. “Əsrin müqaviləsi” sazişinin imzalanması ilə dünyanın aparıcı dövlətlərinin nüfuzlu şirkətlərinin iştirak etdiyi konsorsiumların yaranmasına nail oldu. Azərbaycan daha genişmiqyaslı tərəfdaşlar əldə etmək dövrünə qədəm qoydu. Ölkəmiz 1992-ci ildən BMT-yə, ATƏT-ə və bir çox beynəlxalq təşkilatlara üzv olmuşdu. Avropa Şurası başda olmaqla digər nüfuzlu beynəlxalq təşkilatlara üzvlük nəticəsində isə Azərbaycan insan hüquq və azadlıqların qorunduğu bir məkanın bərabərhüquqlu iştirakçısına çevrildi. Və biz bu vəzifənin hansı çətin və məsuliyyətli bir dövrdə yerinə yetirilməsi haqqında məlumatları bugünkü və gələcək nəslə çatdırmalıyıq ki, müstəqilliyin nəyin bahasına qorunub saxlandığını dərk etsinlər və unutmasınlar.

**- Sizin də qeyd etdiyiniz kimi, Ümummilli lider Heydər Əliyevin fəaliyyətinin bütün mərhələləri göstərir ki, müasir müstəqil Azərbaycanın inkişafı məhz Onun yorulmaz, çoxşaxəli fəaliyyəti sayəsində mümkün olmuşdur. Heç kimə sirr deyil ki, Ulu öndərin əsasını qoyduğu siyasət Prezident İlham Əliyev tərəfindən müasir dövrün tələbləri və reallıqlarına müvafiq surətdə uğurla davam etdirilir. Bu baxımdan, müasir müstəqil Azərbaycanın hazırkı və gələcək inkişafını necə dəyərləndirirsiniz?**

- Bu bir faktdır ki, Ümummilli Liderin ən böyük xidməti Azərbaycan dövlətinin sonrakı dövr üçün inkişafını, xalqın bugünkü və gələcək rifahını, təhlükəsizlik, sabitlik və tərəqqi şəraitində yaşamasının dönməzliyini təmin edən siyasi xadimi yetişdirməsi oldu.

Təbii ki, Heydər Əliyev irsi Azərbaycanın gələcək inkişafı üçün fundamental əsas kimi çıxış edir. Lakin XXI əsrin əvvəlində dünyadakı proseslər də dəyişirdi. 2003-cü ilin ortalarında Ulu Öndərin qəbul etdiyi vacib qərarlardan biri cənab İlham Əliyevin sonrakı 5 illik dövr üçün prezidentliyə namizədliyinin irəli sürülməsi idi. Yeni Azərbaycan Partiyası da bu qərarı yekdilliklə dəstəklədi. Xalq böyük səs çoxluğu ilə İlham Əliyevi dövlət başçısı seçməklə bu davamlı inkişafın təmin olunmasına böyük dəstək verdi. Çünki, istər xarici, istərsə də daxili siyasətdə əsası Ümummilli Lider tərəfindən qoyulan bu siyasi xətt davam etdirilməli idi. Bu da bir həqiqətdir ki, xaricdəki bəzi iqtisadi və siyasi dairələrin dəstəyi ilə daxildə məqam gözləyən qüvvələr var idi və onlar 2003-cü ilin oktyabrında keçirilən prezident seçkisindən sonra sabitliyi pozmağa cəhd etdilər. Lakin Ulu Öndərin əsasını qoyduğu Azərbaycan dövlətçiliyinin sarsılmaz olduğu həmin dövrdə bir daha sübut olundu.

Bundan sonra Azərbaycanda sabitlik və inkişaf dövrünün yeni mərhələsi başladı. Bu 15 ildə Azərbaycanın rifahı, çiçəklənməsi, ölkəmizin regionda və dünyada nüfuzunun daha artması, beynəlxalq hüququn ən mühüm aktorlarından birinə çevrilməsi, vətəndaşların, dövlətin təhlükəsizliyinin müdafiəsi yönündə çox mühüm addımlar atılıb. Azərbaycan dövlətinin hərtərəfli qüdrətli dövlətə çevrilməsi üçün Azərbaycan Prezidenti İlham Əliyevin bu illər ərzində atdığı addımlar beynəlxalq dairələr tərəfindən də dəstəklənir. Artıq etiraf edilir ki, Azərbaycan son 15 ildə olduğu qədər qüdrətli və qətiyyətli mövqeyə malik olmayıb.

Bugünkü uğurlarımız üçün əlbəttə ki, ilk növbədə Heydər Əliyev şəxsiyyətinə, onun müəyyənləşdirdiyi ideoloji, siyasi xəttə və bu xətti davam etdirmək üçün siyasi varisliyi üzərinə götürmüş İlham Əliyevə borcluyuq.

**- Bahar xanım, Ümummilli Liderin banisi olduğu Yeni Azərbaycan Partiyasının rəhbərliyində təmsil olunan bir şəxs kimi hakimiyyətə gəldiyi və dövlətçiliyimizin qurulmasının sonrakı dövrlərində Ulu Öndər Heydər Əliyevlə bağlı xatirələrinizi bölüşməyinizi istərdik.**

- Mən Ulu Öndərlə ilk dəfə 12 yaşımda görüşmüşəm. Elə o zamandan da Heydər Əliyev şəxsiyyəti mənim üçün ideala çevrilib. Əldə etdiyim bütün uğurlarımda da Ümummilli Lider və onun ideyalarına sadiqliyin mühüm rol oynadığına dərindən inanıram. Heydər Əliyevin gənclərə və onunla birlikdə Azərbaycana xidmət yolunu seçənlərə göstərdiyi diqqəti heç vaxt unuda bilmərəm.

Onu qeyd edim ki, Ümummilli Lider biz qadınların dövlət və ictimai həyata cəlb olunmağımıza xüsusi əhəmiyyət verməklə yanaşı, kadr kimi formalaşmağımıza da xüsusi diqqət yetirir və yeri gəldikdə bizi hər cür təhlükələrdən qorumağa çalışır, uğurlarımızı şəxsən dəyərləndirirdi. Bir YAP üzvü, Azərbaycan qadını kimi bu diqqət və himayəni həmişə üzərimdə hiss etmişəm. Mən özümü şanslı insanlardan biri hesab edirəm ki, Onu tanımışam, onunla ünsiyyətdə olmuşam, onun tapşırıqlarını yerinə yetirmişəm, onun formalaşdırdığı komandada ən kiçik bir postdan bugünkü tutduğum vəzifəyədək yol keçmişəm.

Ulu Öndərlə dəfərlərlə görüşmək mənə qismət olub. Amma ən yadda qalan hadisələrdən biri haqda danışmaq istəyirəm. 1999-cu ilin dekabr ayında Yeni Azərbaycan Partiyasının I Qurultayı keçirilmiş, YAP İcra Katibliyi yeni formalaşdırılmış və YAP İcra katibinin müavini, Siyasi Şura və İdarə Heyətinin üzvü seçilmişdim.

Mənim üçün çox vacib olan bu seçkidən bir neçə ay sonra 2000-ci il martın 7-də ovaxtkı Respublika sarayında keçirilən ənənəvi bayram tədbirində protokol xidmətinin işçilərindən biri mənə yaxınlaşdı və Ümummilli Lider Heydər Əliyevin əyləşdiyi sırada oturmağa dəvət elədi. Məndən sağda və soldakı kreslolar boş idi. Bu zaman təsəvvürümə gətirmədiyim hadisə baş verdi və Heydər Əliyev zala daxil oldu və mənim yanımdakı kresloda əyləşdi. Tədbirin əvvəlində tanınmış Azərbaycan qadınları haqqında film nümayiş etdirilirdi. Birdən o əlini ekrana uzadıb soruşdu ki, o qadını tanıyırsanmı? Göstərdiyi qadın Azərbaycanın ilk qadın təyyarəçisi Leyla Məmmədbəyova idi . Sonra digər məsələlər, o cümlədən YAP İcra Katibliyindəki işlərlə maraqlandı. Çox maraqlı bir söhbətin tərəfi və soruşulanlar barədə məlumatlı olmağımla onu qane etdiyim üçün sevinirdim.

Həmin görüşdəki bir məqamı da ilk dəfə dilə gətirmək istəyirəm. Bu hadisənin mənim üçün əlamətdar olmasının digər bir səbəbi partiyada yüksək vəzifəyə çəkilməyimlə bağlı idi. Bəzi dairələrdə “Bahar Muradova kimdir və niyə məhz O” səpkili suallar dolaşırdı. Söhbət əsnasında Ümummilli Lider “Bilirsən də niyə mənim yanımda əyləşmisən?”, - dedi və sonra davam etdi: “Çünki hər kəs bilməlidir ki, sən Yeni Azərbaycan Partiyasının İcra Katibliyinə seçilmisən və səni mən seçmişəm”. Doğrudan da o hadisədən sonra bütün suallar ortadan qaxldı. O müdrik insan bu addımı ilə sanki siyasətə yeni qatılan bir gənc qadını elə ilk növbədə qadınlara və ictimaiyyətə təqdim edirdi. Bu mənimlə bağlı olan maraqlı bir faktdır. Amma mən inanıram ki, Heydər Əliyevin hakimiyyətdə olduğu dövrdə belə bir qayğı, himayə təkcə mənə yox, digər gənclərə də daim göstərilib. Bu da onu göstərir ki, Heydər Əliyev hər zaman yalnız xalqın ümumi deyil, eləcə də ayrı-ayrı şəxslərin fərdi taleyində də böyük rol oynamışdır və bu siyasət bu gün də ölkə Prezidenti İlham Əliyev tərəfindən davam etdirilir.

Onu da qeyd edim ki, Heydər Əliyev siyasəti “Azərbaycanın uğur formulu”dur və bu siyasətə xidmət etməkdən qürur duyuram. Çünki İlham Əliyevin Sədrliyi altında Yeni Azərbaycan Partiyası Ulu Öndərin yadigarı kimi yeni və müstəqil Azərbaycanın qurulmasında vacib siyasi missiyanı həyata keçirən və bu siyasi xətti davam etdirən siyasi təşkilat kimi işini uğurla həyata keçirir. Məhz buna görə də gənclər başda olmaqla Azərbaycanın bir çox vətəndaşı gələcəyini bu partiyaya bağlayır və partiyamızın sıraları günbəgün genişlənir.

Sonda bir daha qeyd edim ki, 10 mayda anadan olmasının 96-cı ili tamam olan Ümummilli Lider Heydər Əliyevi böyük ehtiramla yad edirəm. Qətiyyətlə və əminliklə deyirəm ki, Ulu Öndər Heydər Əliyev bir tarixi şəxsiyyət, ölkə başçısı, partiya rəhbəri və bir insan kimi onu sevənlərin qəlbində hər zaman yaşayacaq.

# Ümummilli Lider Heydər Əliyevin xalqımızın milli-mənəvi dəyərlərinin qorunub saxlanmasında tarixi xidmətləri əvəzsizdir



**YAP İcra katibinin müavini, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının yap.org.az-a müsahibəsi**

***- Mübariz müəllim, mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müasir müstəqil Azərbaycanın memarı və qurucusu, böyük dövlət xadimi Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü tamam olur. Heydər Əliyev şəxsiyyətinin Azərbaycanın zəngin dövlətçilik tarixində yeri və rolu, Ulu Öndərin xalqımız qarşısındakı misilsiz xidmətləri barədə nə deyə bilərsiniz?***

- Xalqların və dövlətlərin tarixi inkişaf yoluna müxtəlif hadisələr və proseslərin fonunda nəzər saldıqda lider amilinin həlledici rola malik olduğu aydın görünür. Daha dəqiq desək, ölkəsinin sahib olduğu resurslar və mexanizmləri milli məqsədlərə yönəldən, xalqı arxasınca aparan, dövlətinin tarixin siyasi səhnəsində özünəməxsus yer tutmasını təmin edən liderlər həm tarixi şəxsiyyətlər, həm də tarix yaradan şəxsiyyətlər kimi yaddaşlara əbədi həkk olunurlar. Şübhəsiz ki, hər bir xalq öz tarixi şəxsiyyətləri ilə fəxr edir, onların yaratdığı irsə bütün dövrlərdə böyük ehtiramla yanaşır. Azərbaycan xalqı da hər zaman tarixi şəxsiyyətləri ilə fəxr etmişdir. Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqının və dövlətinin müstəqilliyi, inkişafı naminə böyük xidmətlər göstərmiş Ümummilli Lider Heydər Əliyev hər zaman fəxr edəcəyimiz, qürur hissi ilə xatırlayacağımız dahi şəxsiyyət və böyük dövlət xadimidir. Ulu Öndər Heydər Əliyev tarixi prosesə təsir göstərməyə qadir şəxsiyyət kimi Azərbaycan xalqı və dövlətçiliyi üçün misilsiz işlər görmüşdür. Əminliklə söyləmək olar ki, Heydər Əliyev Azərbaycan xalqının və dövlətinin taleyüklü problemlərini həll edən tarixi şəxsiyyət olmaqla yanaşı, həm də tarixi yaradan şəxsiyyətdir. Ulu Öndərin milli və dövlətçilik maraqlarına xidmət edən zəngin fəaliyyəti Azərbaycan xalqının tarixində dərin iz buraxaraq əsl dövlət idarəçiliyi məktəbinə çevrilib. Azərbaycan xalqı bundan sonra da bu böyük məktəbdən, Ümummilli Liderin zəngin siyasi irsindən ölkəmizin inkişafı, xalqımızın rifahı naminə faydalanacaq, Azərbaycan Heydər Əliyevin ideyaları əsasında tərəqqi yolunda əmin addımlarla irəliləyərək yeni zirvələr fəth edəcək. Yəni əminliklə söyləmək olar ki, Heydər Əliyev irsi gələcək nəsillər üçün də zəngin xəzinə olacaq.

Ulu Öndər Heydər Əliyev o şəxsiyyətlərdəndir ki, O, özü bir tarix, salnamə yaratmış, zamanın axarını nizamlamaq qüdrətinə sahib olmuşdur. Azərbaycanın müstəqil dövlət kimi mövcudluğunun qorunub saxlanması, inkişafı, ölkəmizdə sabitlik və həmrəyliyin təmin olunması bilavasitə Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyevin öz xalqı və dövləti qarşısındakı misilsiz xidmətləri Azərbaycan tarixinin şanlı səhifələrini təşkil etməkdədir. Ümumiyyətlə, Ulu Öndər Heydər Əliyevin həyat amalı, zaman və məkan anlayışına sığmayan siyasi fəaliyyətinin əsas məqsədi azad və müstəqil dövlət qurmaq idi. Ümummilli Liderimiz Azərbaycanı özünə güvənən qüdrətli bir ölkəyə çevirmək istəyirdi. Bu yolda qəti addımlar atır, əməli işlər görür, Azərbaycanın etibarlı, sağlam gələcəyini qururdu. Xalq Onu sevir, parlaq zəkasını qiymətləndirir və öz liderinə, Onun yeritdiyi siyasi kursa inanaraq ardınca gedirdi. Azərbaycanın dövlət müstəqilliyinin bərpası ərəfəsində gedən proseslərdə Heydər Əliyev tarixi şəxsiyyət, lider olaraq Azərbaycan xalqının taleyinə təsir göstərən əhəmiyyətli addımlar atdı. 1993-cü ilin yayında Azərbaycan olduqca mürəkkəb şəraitdə olduğu zaman xalqın təkidlə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıtmasını tələb etməsi heç də təsadüfi deyildi.

Həmin il iyunun 15-də müdrik siyasətçinin, təcrübəli dövlət xadiminin hakimiyyətə tarixi qayıdışı ilə Azərbaycan tarixinin yeni, əzəmətli mərhələsinə qədəm qoydu. Bu qayıdış ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində dönüş yarandı, elmi əsaslara uyğun şəkildə müstəqil dövlət quruculuğu prosesi başlandı. Ulu Öndər Heydər Əliyev tarixə müasir müstəqil Azərbaycanın memarı olaraq düşdü. Ümummilli Liderin hakimiyyətə gəlişi ölkəmizi yalnız iqtisadi cəhətdən irəli aparmadı, eyni zamanda, Azərbaycan xalqının mənəvi aləmində, psixoloji durumunda, milli şüurunda böyük təkamülün, dəyişikliyin yaranmasına gətirib çıxardı. Yəni Ulu Öndərin Azərbaycanda siyasi hakimiyyətə gəlişinin iqtisadi, siyasi, sosial, mənəvi, psixoloji, ideoloji əhəmiyyəti var idi. Ümummilli Lider Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi, möhkəm iradəsi, məqsədyönlü və uzaqgörən siyasəti nəticəsində respublikamız hərtərəfli və dinamik inkişaf yoluna qədəm qoydu. Heydər Əliyev özünün gərgin əməyi, uğurlu daxili və xarici siyasət strategiyası ilə ölkəmizin iqtisadi inkişafının, daxili siyasi sabitliyin və əmin-amanlığın, milli-mənəvi dəyərlərə qayıdışın, bu dəyərlərin qorunması və təbliğ edilməsinin rəhninə çevrildi. Biz Ümummilli Liderin müstəqillik dövründə, yəni 1993-2003-cü illərdə Azərbaycana rəhbərliyi dönəmində ölkəmizin keçdiyi inkişaf yoluna, qazanılan nailiyyətlərə nəzər saldıqda görürük ki, Azərbaycan, sözün əsl mənasında, sabitlik adası kimi çox mühüm zirvələr fəth edib, beynəlxalq münasibətlər sistemində söz və nüfuz sahibinə çevrilib. Bütün bunların nəticəsidir ki, müstəqil Azərbaycan 1993-cü ildən bu günə qədər inkişaf yolunda inamla irəliləyir, qazanılan möhtəşəm uğurlar ölkəmizin qüdrətinin daha da artmasını təmin edir.

***- Yeri gəlmişkən, Ulu Öndər Heydər Əliyevin milli-mənəvi dəyərlərin qorunması və təbliği, eyni zamanda, ölkəmizdə din-dövlət münasibətlərinin tənzimlənməsi istiqamətində həyata keçirdiyi işlərin əhəmiyyəti nədən ibarətdir?***

- Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın özünəməxsus dövlət-din münasibətləri modelinin formalaşdırılmasında, eləcə də milli-mənəvi dəyərlərin qorunub saxlanılmasında xidmətləri əvəzsizdir. Daha dəqiq desək, Ulu Öndər Heydər Əliyev milli və dini dəyərlərimizin qorunmasında, İslam dininə ehtiram göstərilməsində, xalqımızın dini əqidəsinin daha da möhkəmləndirilməsində, eləcə də ölkədə vicdan azadlığının bərqərar edilməsində, tolerant və multikultural ənənələrimizin təbliğində və təşviqində əməli fəaliyyəti ilə misilsiz rol oynayıb. "Biz azərbaycanlılar öz tariximizlə, milli-mənəvi dəyərlərimizlə fəxr edirik, öz doğma ana dilimizlə fəxr edirik. Bunlar hamısı bizim milli mənəviyyatımız, milli-mənəvi dəyərlərimizdir. Bunlara görə də biz islam dininə, islam mədəniyyətinə mənsub olmağımızla da fəxr edirik",-deyən Ulu Öndər xalqda milli heysiyyəti gücləndirmək, habelə zəngin irsimizi, mədəniyyətimizi, incəsənətimizi, adət-ənənələrimizi yaşatmaq, ana dilimizi inkişaf etdirmək üçün çox mühüm tədbirlər həyata keçirib. Qeyd etdiyimiz kimi, Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı ilə gənc dövlətin siyasi və iqtisadi əsasları yaradıldı, eyni zamanda, Azərbaycan xalqının milli-mənəvi irsini ehtiva edən ideya - azərbaycançılıq ideologiyası təşəkkül tapdı. Məhz Ulu Öndərin həyata keçirdiyi milli siyasətin fonunda sayəsində xalqın keçmişinə, milli adət-ənənələrinə, dininə dövlət səviyyəsində qayğı göstərilməyə başlanıldı, milli-mənəvi dəyərlərə münasibət əsaslı dərəcədə dəyişdi, bu dəyişikliyin fonunda ölkədə etiqad, inanc azadlığı bərqərar oldu. Vətəndaşların vicdan azadlığı Heydər Əliyevin müəllifi olduğu Konstitusiyamızın 48-ci maddəsində öz əksini tapdı.

Azərbaycan tarixən tolerantlıq, dini dözümlülük ənənələri ilə fərqlənsə də, beynəlxalq standartlara cavab verən dövlət-din münasibətləri, tolerantlıq prinsipləri ölkəmizdə məhz Heydər Əliyevin xidmətləri sayəsində bərqərar olub. Ulu Öndərin həyata keçirdiyi ardıcıl və məqsədyönlü siyasət nəticəsində Azərbaycan Respublikasında insan hüquqlarının qorunmasına dair qanunvericilik bazası beynəlxalq hüquq normalarına uyğunlaşdırılıb, dövlət-din münasibətlərinin tənzimlənməsi prinsipləri təsbit olunub, dini etiqad azadlığı ilə bağlı normativ hüquqi aktlara riayət edilməsinə nəzarət gücləndirilib, konfessiyalar arasında dözümlülük mühiti yaxşılaşdırılıb, eləcə də dini-tarixi abidələrimizin tikintisi, bərpası və qorunması istiqamətində mühüm tədbirlərin həyata keçirilməsinə başlanılıb. Ulu Öndər Heydər Əliyev Azərbaycanda hakimiyyətə qayıtdıqdan sonra ölkədə iqtisadi çətinliklərin mövcud olmasına baxmayaraq, Bibi Heybət, Təzə Pir məscidlərinin təmir və bərpasına xüsusi diqqət göstərdi. Bununla yanaşı, Ulu Öndər 2001-ci il iyunun 21-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılması barədə Fərman imzaladı və Dövlət Komitəsinin qarşısına Azərbaycan Respublikası Konstitusiyasının 48-ci maddəsinin həyata keçirilməsi üçün müvafiq şəraitin yaradılması, dini etiqad azadlığı ilə bağlı qanunvericilik aktlarına riayət olunmasına nəzarətin təmin edilməsi, dini qurumların dövlət qeydiyyatına alınması, zərərli təriqətlərin fəaliyyətinə son qoyulması və digər vəzifələr qoydu. Bu, dövlətdin münasibətlərinin tənzimlənməsi baxımından olduqca mühüm əhəmiyyətə malik idi. Bir sözlə, Azərbaycanda dövlət-din münasibətlərinin əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulub.

***- Mübariz müəllim, Siz Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu azərbaycançılıq ideologiyasına toxundunuz. Milli həmrəylik və bütövlüyü təmin edən universal ideoloji formul olan azərbaycançılığın tolerant və multikultural dəyərlərin qorunub saxlanmasında rolunu necə xarakterizə etmək olar?***

- Əvvəla qeyd edim ki, azərbaycançılıq məfkurəsi cəmiyyətdə sabitlik, əmin-amanlığı təmin edərək dövlətçiliyin stabil əsaslar üzərində tərəqqisinə geniş üfüqlər açmaqla yanaşı, öz humanist və bəşəri mahiyyəti ilə fərqlənir. Burada həm də ayrı-ayrı din, dil və mədəniyyət daşıyıcılarına nəinki toxunulmazlıq hüququ verilir, hətta azlıq və çoxluq təşkil etməsindən asılı olmayaraq bərabər miqyasda hörmət, ehtiram göstərilir. Bu gün Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq məfkurəsi multikultural münasibətlərin hakim olduğu Azərbaycan cəmiyyətində və ictimai-siyasi münasibətlərin qeyri-müəyyənliyi ilə diqqəti cəlb edən beynəlxalq aləmdə öz orijinallığı ilə seçilir. Hər iki məfhum bir-biri ilə üzvi vəhdət təşkil edən ideologiya və həyat norması kimi ölkədaxili ictimai-siyasi və sosial-mədəni münasibətlərin tənzimləyicisi, hərəkətverici qüvvəsi qismində çıxış edir, Qərblə Şərqin qovşağında qərar tutmuş Azərbaycanın altruist düşüncədən qaynaqlanan, bəşəri dəyərlərə ciddi önəm verən, mənəviyyatı və humanist prinsipləri bütün maraqların fövqündə saxlayan mövqeyində öz aydın ifadəsini tapmışdır.

Günümüzdə etnokonfessional zənginliyi özündə yaşadan və birləşdirən ideoloji baxışlar sistemi kimi azərbaycançılıq məfkurəsi müstəqil Azərbaycan dövlətinin ana xəttini təşkil edir. Təsadüfi deyil ki, Ulu Öndər siyasi hakimiyyətə qayıdışının ilk günündə etdiyi çıxışda azərbaycançılığı dövlət idarəçiliyi fəlsəfəsində əsas tezis kimi irəli sürmüşdür: "Azərbaycan Respublikasının ərazisində olan hər bir vətəndaş milliyyətindən, dinindən, siyasi mənsubiyyətindən asılı olmayaraq, eyni hüquqa malik olmalıdır. Əgər biz bu məfhumları rəhbər tuta bilsək və bunu əməli surətdə həyata keçirə bilsək, biz Azərbaycan Respublikasında olan bütün xalqların, bütün millətlərin tam birləşməsini təmin edə bilərik. Bu bizim əsas vəzifələrimizdən biridir".

Azərbaycançılıq milli ideologiyanın əsası kimi müxtəlif xalqların, mədəniyyətlərin, ənənələrin, konfessiyaların üzvi surətdə birliyini təcəssüm edir. O, milli maraqları ifadə edən güclü dövlət hakimiyyətinə və yüksək milli intizama, formalaşan milli özünüdərkə əsaslanır, ən müxtəlif sosial təbəqələrdə anlaşma axtarır, millətin və dövlətin öz potensialından irəli gələn daimi islahatçılığı təbliğ edir. Bu gün azərbaycançılıq milli həyatın, konfessiyaların harmoniyasının çoxəsrlik ənənəsi, ölkədə yaşayan bütün millət və etnik qrupların qardaşlığının, qarşılıqlı əlaqə və qarşılıqlı təsirinin tarixi, onların ümumi taleyi və müstəqil Azərbaycanın bütövlüyü uğrunda birgə mübarizələrinin tarixi təcrübəsidir. Beləliklə, azərbaycançılıq ideologiyası etnik yox, siyasi və vətəndaşlıq xarakteri daşıyır, yalnız müstəqil Azərbaycanın vətəndaşlarına münasibətdə deyil, Azərbaycanın müstəqil dövlətçilik ideyasını üstün tutanlara münasibətdə də birləşdirici funksiyasını yerinə yetirir. Bir sözlə, azərbaycançılıq ideologiyası ilə multikulturalizm ideyası bir-birini tamamlayır.

Ardı Səh. 11

# Ümummilli Lider Heydər Əliyevin xalqımızın milli-mənəvi dəyərlərinin qorunub saxlanmasında tarixi xidmətləri əvəzsizdir

Əvvəli-Səh -10

***- Xalqımızın zəngin milli-mənəvi dəyərlərinin qorunması istiqamətində Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu dövlət siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Eyni zamanda, Azərbaycan dünyada multikulturalizm mərkəzlərindən biri və tolerantlıq nümunəsi kimi tanınır, ölkəmizdə müxtəlif dinlərin və xalqların nümayəndələri sülh, əmin-amanlıq və mehribanlıq şəraitində yaşayırlar. Bu barədə fikirlərinizi bildirməyinizi xahiş edirik.***

- Bu gün müstəqil Azərbaycan Ulu Öndər Heydər Əliyevin ideyaları əsasında inkişaf edir. Yəni Heydər Əliyev siyasəti bu gün də Azərbaycanın hərtərəfli inkişafına xidmət etməkdədir. Dövlətimizin hazırkı parlaq və möhtəşəm nailiyyətlərinin əsasını Ümummilli Lider tərəfindən qoyulan ideyalar təşkil edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə milli maraqlara və müasir qlobal çağırışlara uyğun həyata keçirilən uğurlu siyasətin qanunauyğun nəticəsi kimi, Azərbaycan dünyada güclü, nüfuzlu dövlət, sabitlik adası və dinamik inkişafa malik olan ölkə kimi tanınır, qazanılan möhtəşəm nailiyyətlər ölkəmiz qarşısında yeni perspektivlər açır. Yüksək beynəlxalq nüfuza, müsbət reputasiyaya malik olan Azərbaycan təkcə iqtisadi inkişaf modeli ilə deyil, həm də özündə milli və ümumbəşəri dəyərləri ehtiva edən zəngin mədəniyyəti ilə diqqəti cəlb edir, dünyada multikulturalizmin ünvanlarından biri, tolerantlıq örnəyi kimi tanınır. Başqa sözlə, Azərbaycan dünyaya milli inkişaf modeli ilə yanaşı, tolerantlıq və multikulturalizmin təşviqi, təbliği istiqamətində mütərəqqi nümunə təqdim edib.

Son illər bütün dünyada dinimilli, sosial-iqtisadi zəmində baş verən münaqişələrin, vətəndaş müharibələrinin fonunda ölkəmizdə müşahidə olunan sabitlik həm də onun sübutudur ki, Azərbaycan bir çox ölkələrin sahib olmaq istədiyi, ancaq əldə etməkdə çətinliklər çəkdiyi, uğursuzluqlar yaşadığı ali dəyərlərin - tolerant və multikultural ənənələrin beşiyidir, bu sahədə onun öz təcrübəsi, bu təcrübəni qoruyub saxlayan, gələcək nəsillərə ötürən dövlət-din modeli var. O model ki, dünyada tədqiq edilir, öyrənilir və tətbiqinin əhəmiyyəti hər kürsüdə qətiyyətlə vurğulanır. Ümumiyyətlə, əsrlər boyunca Azərbaycan müxtəlif dinlərin və etnik qrupların nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində yaşadığı yer olub. Biz bu gün də bu reallığın şahidi oluruq. Şamaxı şəhərində yerləşən, 743-cü ildə tikilmiş məscid müsəlman aləminin ən qədim məscidlərindən biridir. Azərbaycanın digər qədim şəhəri olan Şəki şəhərinin yaxınlığında Qafqazın ən qədim kilsələrindən biri olan Kiş kilsəsi-Müqəddəs Yelisey kilsəsi yerləşir. Adlarını çəkdiyimiz hər iki məbəd dövlət tərəfindən əsaslı şəkildə təmir, bərpa edilib və qorunur. Bakıda qədim atəşpərəstlik məbədi olan Atəşgahın yerləşməsi isə Azərbaycanda Zərdüştlük dininin ənənələrinin olduğunu göstərir. Bütün bunlar Azərbaycanın qədim dövrdən bu günə qədər multikultural mühitə və dəyərlərə malik olduğunu, tolerantlıq ənənələrini yaşatdığını bir daha ortaya qoyur. Təsadüfi deyil ki, bu gün heç kim, hətta bizə ikili standartlar prizmasından yanaşmağı ənənəyə çevirmiş müəyyən dairələr də Azərbaycanda multikultural mühitin mövcudluğunu inkar edə bilmirlər, ölkəmizin tolerantlıq nümunəsi olduğunu diqqətə çatdırırlar.

Bunlarla yanaşı, bu gün Prezident İlham Əliyev milli-mənəvi dəyərlərimizin qorunub saxlanılmasını, təbliğ və təşviq edilməsini daim diqqət mərkəzində saxlayır. Mənəvi Dəyərlərin Təbliği Fondunun təsis edilməsi dövlət başçısının milli-mənəvi dəyərlər sahəsinə göstərdiyi diqqət və qayğının daha bir ifadəsidir. Qloballaşma prosesinin gətirdiyi bir sıra tendensiyaların müasir cəmiyyətlərə intensiv təsir göstərdiyi hazırkı şəraitdə xalqların milli xüsusiyyətlərinin, mədəniyyətinin, milli özünəməxsusluğunun qorunub saxlanılması vacib əhəmiyyətə malikdir. Bu baxımdan, Mənəvi Dəyərlərin Təbliği Fondunun milli-mənəvi dəyərlərimizin qorunması və gələcək nəslə çatdırılması istiqamətində gördüyü işlər, həyata keçirdiyi ardıcıl və məqsədyönlü tədbirlər də bu kontekstdə xüsusi önəm kəsb edir.

Dünyada multikulturalizm mərkəzlərindən biri kimi tanınan Azərbaycan, həmçinin beynəlxalq dialoq və əməkdaşlıq məkanı olaraq qlobal əhəmiyyətli nüfuzlu tədbirlərə uğurla ev sahibliyi edir, sivilizasiyalararası dialoqun intensiv və faydalı xarakter daşımasına fundamental töhfələr verir. 2008-ci ildən Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən "Bakı Prosesi" 10 il ərzində müxtəlif qitələrdə yaşayan fərqli etnik, mədəni, dini və linqvistik mənsubiyyəti olan ayrı-ayrı insanlar və qruplar arasında qarşılıqlı anlayış çərçivəsində səmimiyyət və hörmətə əsaslanan fikir mübadiləsi üçün müsbət platforma yarada bilib. Son olaraq cari ilin 2-3 may tarixlərində paytaxt Bakıda "Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq" şüarı altında V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçirilməsi bu baxımdan xüsusi qeyd edilməlidir. Forum Azərbaycan hökumətinin təşkilatçılığı, UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Dünya Turizm Təşkilatı, Avropa Şurası və ISESCO-nun tərəfdaşlığı ilə keçirilib, tədbirdə 100-dən çox ölkənin və 30-dan çox beynəlxalq təşkilatın yüksək səviyyəli rəsmiləri iştirak ediblər. Bütövlükdə, belə tədbirlər bəşəriyyət üçün aktual məsələlərin həlli yollarının müzakirə platforması kimi mühüm əhəmiyyətə malikdir, dünyaya mütərəqqi nümunə təqdim edən Azərbaycanın dinlər və mədəniyyətlərarası dialoqa mühüm töhfələr verdiyini göstərir.

# Kənd Təsərrüfatı Nazirliyində Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş tədbir keçirilib





Tədbirdə Kənd Təsərrüfatı Nazirliyi Aparatının nümayəndələri, Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov, Yeni Azərbaycan Partiyasının (YAP) Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov, Yeni Azərbaycan Partiyasının Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev, nazirliyin tabeli qurumlarının nümayəndələri iştirak ediblər.

SİA xəbər verir ki, tədbiri giriş sözü ilə açan kənd təsərrüfatı naziri İnam Kərimov ümummilli lider Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin qurulması, müstəqilliyinin qorunub saxlanılması istiqamətində fəaliyyətindən bəhs edib. Ulu Öndərin müstəqil Azərbaycanın inkişafında misilsiz xidmətlərinin olduğunu deyən İnam Kərimov bildirib ki, hər il mayın 10-u Azərbaycan xalqı tərəfindən əhəmiyyətli, mötəbər gün kimi qeyd olunur: "Ümummilli lider Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycan siyasi və iqtisadi cəhətdən qüdrətli dövlətə çevrilib. Heydər Əliyev siyasi kursu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının qəbul etdiyi qərarlar, imzaladığı Fərman və Sərəncamlar ölkə iqtisadiyyatının, o cümlədən aqrar sektorun davamlı inkişafına real zəmin yaradır".

Tədbirdə çıxış edən Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov, Yeni Azərbaycan Partiyasının Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev ulu öndər Heydər Əliyev ilə bağlı xatirələrini bölüşüblər. Çıxış edənlər vurğulayıb ki, xalqımızı tarixin ağır və sərt sınaqlarından çıxaran ümummilli lider Heydər Əliyev bütövlükdə müasir Azərbaycanın dinamik və davamlı inkişafının bünövrəsini yaradıb. Natiqlər bildiriblər ki, ümummilli liderin ölkəmizə rəhbərlik etdiyi dövr Azərbaycanda müstəqilliyin əbədi və dönməz xarakter alması, dövlətçiliyin möhkəmləndirilməsi, iqtisadi inkişaf üçün möhkəm təməlin yaradılması ilə müasir tariximizə əbədi həkk olunub.



Tədbirdə hakim Yeni Azərbaycan Partiyası sıralarına yeni daxil olan 51 nəfərə partiyanın üzvlük vəsiqəsi təqdim olunub. Üzvlük vəsiqələrini kənd təsərrüfatı naziri İnam Kərimov, Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov, YAP Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov, YAP-ın Yasamal rayon təşkilatının sədrinin birinci müavini Qərib Məmmədov, kənd təsərrüfatı nazirinin müavini Seyfəddin Talıbov, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev təqdim ediblər.

***İnam Hacıyev***

# BDU-da Ulu Öndərin doğum günü qeyd edilib





Bakı Dövlət Universitetində Ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunan tədbir keçirilib. SİA-nın xəbərinə görə, tədbirdə BDU-nun rektoru Elçin Babayev, Yeni Azərbaycan Partiyasının icra katibinin müavini, millət vəkili Siyavuş Novruzov, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu, "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev, millət vəkilləri, ali məktəbin müəllim və tələbə heyəti, KİV nümayəndələri iştirak ediblər.

Tədbirdə öncə qonaqlar BDU-nun foyesində yerləşən Ulu Öndərin büstü önünə əklil qoyaraq, Ümummilli liderin xatirəsini ehtiramla anıblar. Daha sonra tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Çıxış üçün ilk söz BDU-nun rektoru Elçin Babayevə verilib.

O bildirib ki, Ulu Öndər Heydər Əliyevin irsi oluqca zəngindir: "Ulu öndər irsinin dərk edilməsi çətin məsələlərdən biridir. O mükəmməl dövlət quruculuğu konsepsiyasını işləyi, yerinə yetirən dahi şəxsiyyətdir. Ümummilli lider Azərbaycanın dünyada layiqli yerini tutması üçün uzun müddət işləyib çalışdı. Dünyanın ən tanınmış insanları Heydər Əliyev haqqında danışanda Onun praqmatik Lider olduğunu bildirirlər. Ümummilli liderin həyata keçirdiyi töhfələr hələ uzun illər tədqiqatçılar tərəfindən araşdırılacaq. 1990-cı illərin əvvəlində Azərbaycan uçurumun kənarında dayanmışdı. Bunun qarşısını almaq mümkün deyildi. Belə bir çətin zamanda Heydər Əliyev Azərbaycanın siyasi səhnəsinə gələrək ölkəmizi xilas etmiş oldu".

Ümummilli lider tərəfindən həyata keçirilən siyasəti nəticəsində bu gün dünyanın Azərbaycanla hesablandığını deyən rektor söyləyib ki, Ulu Öndər təkcə yaşadığı dövrü deyil, gələcəyi düşünürdü: "Heydər Əliyevin Azərbaycana, regiona, bütöv dünyaya töhfələr verdiyi danılmaz faktdır. Onun xatirəsi xalqımızın qəlbində daim yaşayacaq. Bu gün Prezident İlham Əliyev də Ulu Öndərin siyasətini yeni çalarlarla həyata keçirir".

Çıxışdan sonra ali məktəbin sifarişi "SƏS" Media Qrupu tərəfindən hazırlanan, Ümummilli lider Heydər Əliyevə həsr olunan videofilm nümayiş etdirilib.

Tədbirdə məruzə ilə çıxış edən Yeni Azərbaycan Partiyasının icra katibinin müavini, millət vəkili Siyavuş Novruzov söyləyib ki, Ulu Öndər fəaliyyəti ilə bir daha sübut etdi ki, əgər bir şəxs qarşısına dövlətə xidmətçilik etməyi qoyubsa ona heç kim və heç nə mane ola bilməz: "Bu gün bəziləri öz xidmətlərini başqa cür təqdim etməyə çalışırlar. Həmin şəxslər guya həmin dövrdə mövcud olan sistemin, dövlət quruluşunun düzgün olmadığı üçün fəaliyyətlərini təqdim edə bilmədiklərini bildirirlər. Lakin Ulu Öndər bunun üzərindən xətt çəkdi və sübut etdi ki, xidmət göstərmək üçün istəmək lazımdır".

YAP-ın icra katibinin müavini söyləyib ki, dünyada çox az ölkələr var ki, onlar müstəqil siyasət həyata keçirir: "Azərbaycan da bu az ölkələr sırasındadır. Təbii ki, bütün bunları Ümummilli Liderin əsasını qoyduğu siyasət nəticəsində əldə etmək mümkün olub. Tarixə nəzər salsaq görərik ki, ən acınacaqlı müstəqillik 15 respublika arasında Azərbaycana qismət olub. Baxmayaraq ki, Azərbaycan digərlərindən güclü idi, amma ölkəmiz ən çətin və ağır müstəqillik dövrü yaşayıb. Çünki, o vaxtki rəhbərlikdə olan insanlar fəaliyyətlərini xalqın rifahına, müstəqil dövlətin qurulmasına deyil, Ümummilli Liderin əvvəlki dövründəki fəaliyyətinin təhlilinə həsr edirdilər. Onlar ordu yaratmaq əvəzinə şər, böhtan atmaqla məşğul idilər. Lakin Ulu Öndər hakimiyyətə gəldikdən sonra bunlara son qoyuldu".

Ulu öndər Heydər Əliyevin tələbələrin xaricdə oxuması istiqamətində əvəzolunmaz addımlar atdığını deyən S.Novruzov deyib ki, Azərbaycançılıq ideologiyası Ümummilli lider tərəfindən hazırlanıb: "O kiçik bir dövlətin böyük prezidenti idi. Bütün ölkələrdə Ulu Öndərə olan hörmət çox yüksək idi. Ümummilli lider Azərbaycanı yüksək şəkildə təqdim edirdi. Onun atdığı ən gözəl addımlardan biri hakimiyyətinin davamlılığını təmin etməkdir. Bu, ilk növbədə YAP-ın yaradılması idi. Partiyanın ilk təşkilatı Məhz BDU-da yarandı və daha sonra bütün rayonlara səpələndi. Ulu Öndərin hakimiyyətə gəldiyi zamanla indiki Azərbaycanı müqayisə etsək yerlə göy qədər fərqi görə bilərik. Prezident İlham Əliyev də Ulu Öndərin siyasi xəttini uğurla davam etdirir. Ümummilli lider özü də bildirirdi ki "Mən İlham Əliyevə güvənirəm və əminəm ki, O mənim yarımçıq qoyduğum işləri davam etdirəcək".

Bu gün Azərbaycanın beynəlxalq təşkilatlarda təmsil olunduğunu xüsusi vurğulayan millət vəkili qeyd edib ki, əldə olunan uğurlar Prezident İlham Əliyevin cəsarətli addımları nəticəsində əldə olunub. Bu gün biz Heydər Əliyev irsinin hərtərəfli şəkildə davam etdiyini görürük və buna dəstək verməliyik".

Ötən həftə Azərbaycanda V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçirildiyini xatırladan S.Novruzov qeyd edib ki, forumda bir sıra ölkələrdən yüksək nümayəndə heyətləri iştirak etməklə yanaşı, Azərbaycanın yüksək təşkilatçılığından söz açır, ölkəmizin inkişafı, sabit və təhlükəsiz olduğunu bildirdilər. Azərbaycan bu gün sabitlik adasıdır. Biz bu sabitliyi qorumalıyıq".

"Yeni Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu çıxış edərək vurğulayıb ki, Ulu öndər Azərbaycan üçün Ümummilli lider, dünya üçün ümumbəşəri liderdir. 90-cı illərin əvvəllərində Azərbaycanın böhran şəraitində olduğunu xatırladan baş redaktor söyləyib ki, bu böhranın həm siyasi, həm iqtisadi, həm də digər səbəbləri var idi: "Bu mərhələdə Ulu öndər Azərbaycan dövlətçiliyinin siyasi, iqtisadi əsaslarının formalaşdırmasına nail oldu. Bundan sonra milli ideologiya yarandı, Konstitusiya qəbul edildi, vətəndaş cəmiyyəti formalaşdırıldı, cəmiyyətə hüquqi dövlət anlayışı təqdim edildi. Əgər Azərbaycan bu mərhələləri keçməsəydi, indiki inkişafına nail ola bilməzdi. Ulu öndər azərbaycançılığı milli ideologiya kimi təqdim etdi. Bu ideologiya milli neokonservatizmdir. Tarix sübut etdi ki vaxtilə irəli sürülən bu fikirlər Azərbaycanın sonrakı inkişafını müəyyənləşdirdi. Ulu öndər Azərbaycan dilinin dövlət dili kimi təsbitində də mühüm rola malikdir. Azərbaycan Konstitusiyası Ümummilli liderin şah əsəridir. Ulu öndər azadlığın nə olduğunu bilirdi, bu baxımdan Azərbaycan Konstitusiyasında söz, fikir, mətbuat azadlığı öz əksini tapıb. Onun ikinci dəfə hakimiyyətə qayıdışından sonra Azərbaycanda senzura ləğv edildi".

H.Babaoğlu vurğulayıb ki, istər ideologiya, istər dövlətçilikdə varislik mühüm faktordur: "Bu faktor sonrakı dövrdə Azərbaycanın inkişafına mühüm töhfələr verdi. Azərbaycan neft yataqlarına malik olan ölkədir. Bizim ətrafımızda da təbii ehtiyatlara malik olan ölkələr var. Lakin ondan düzgün istifadə etmək çox mühümdür. Azərbaycanın öz ehtiyatlarından düzgün, səmərəli istifadəsi nəticəsində iqtisadiyyatımız şaxələndirildi. Bununla da Azərbaycana meqa layihələr həyata keçirmək imkanı yarandı. Azərbaycan geostrateji ərazidə yerləşsə də, okeana çıxışı yoxdur. Lakin Azərbaycan bunu da bacardı. Əgər vaxtilə Ulu öndər siyasətinin əsası qoyulmasaydı. Hazırda heç bir inkişafdan danışa bilməzdik".

"SƏS" Media qrupunun rəhbəri Bəhruz Quliyev çıxışında bu günlərdə həm ölkəmizdə, həm də ölkədən kənarda Ulu Öndərin doğum günü ilə bağlı müxtəlif tədbirlərin keçirildiyini və hər kəsin Ümummilli Lider irsinə fərqli yanaşdığını dilə gətirib.

Onun sözlərinə görə, Ulu Öndərin irsi daim alimlər tərəfindən öyrəniləcək, lakin bu irs o qədər zəngindir ki, onu araşdırmaqla bitməz.

B.Quliyev qeyd edib ki, dağa kənardan baxdıqda onun əzəməti daha yaxşı görünür: Hazırda Ümummilli Lider cismani olaraq yanımızda olmasa da, hesab edirəm ki, zaman keçdikcə Ulu Öndərin əzəməti daha da böyük görünəcək. Ümummilli Liderin "Hər bir kəsin milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən fəxr edirəm ki, azərbaycanlıyam" ifadələri hər birimiz üçün örnəkdir, mühüm tövsiyə xarakteri daşıyır. Ümummilli lider bu kəlamları ilə hər birimizə, xüsusilə də gənclərə Vətəni sevməklə bağlı tövsiyələrini verib".

Media Qrupun rəhbəri vurğulayıb ki, Ümummilli Lider güclü dövlət xadimi idi: "O həm SSRİ, həm də bütün dünyada Azərbaycanın mənafeyini qoruyur, ölkəmizin ən yüksək pillələrə qalxmasına şərait yaradırdı. Ulu Öndər milli dövlətçilik ideologiyası yaratdı, ən çətin zamanda xalqının yanında oldu. Dahi şəxsiyyət müstəqil dövlət yaradan memardır. Ulu Öndər həm xalqının, həm də ailəsinin bir atası idi. O strateq, praqmatik lider idi. Məhz bunun nəticəsində bu gün Azərbaycan onun konsepsiyası əsasında çiçəklənir".

"İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə deyib ki, bu gün Azərbaycanın tarixində mühüm yer tutan şəxsiyyətin 96-cı ildönümü qeyd edilir. Ümummilli liderin Azərbaycanın bütün sahələrində fəaliyyətinin göz önündə olduğunu deyən baş redaktor qeyd edib ki, hazırkı müstəqil Azərbaycanın varlığı Ulu Öndərin adı ilə bağlıdır: "O harada olubsa, Azərbaycanın mənafeyini qoruyub. 90-cı illərin əvvəllərində Azərbaycanın varlığı sual altında idi. Siyasi qruplaşmaların tüğyan etdiyi bir dövrdə, iqtisadiyyatın tənəzzül etdiyi dövrdə Ulu Öndər Azərbaycanı qorudu. Üçrəngli bayrağımız məhz Ümummilli liderin hakimiyyəti qayıdışından sonra müəyyən edildi. Bu gün Azərbaycan dünyaya müasir şəkildə təqdim olunur. Ölkəmizdə görülən bütün işlər Ulu öndər siyasətinə əsaslanaraq Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Azərbaycan təkcə region üçün deyil, qitələri birləşdirən önəmli layihələr həyata keçirir. Biz dövlət başçısına dəstək olmalı, ölkəmizin inkişafı istiqamətində görülən işləri yüksək qiymətləndirməliyik". Tədbirdə Ümummilli lider Heydər Əliyevə həsr olunan və vətənpərvər musiqiləri səsləndirilib.

# Heydər Əliyev və Azərbaycan səhiyyəsi



*Müsahibimiz Milli Məclisin deputatı Kamaləddin Qafarovdur*

***- Kamaləddin müəllim, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısında xidmətləri misilsizdir. Ümummilli Liderin zəngin və çoxşaxəli fəaliyyəti ilə bağlı fikirlərinizi bizimlə bölüşməyinizi istərdik.***

- Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev siyasi dünyagörüşü, zəngin dövlət təcrübəsi ilə dövlətçiliyin, azərbaycançılıq ideyasının elmi-nəzəri və təcrübi əsaslarını yaradan görkəmli dövlət xadimi olaraq, əbədiyaşarlıq qazanıb. Ölkə tarixində mühüm proseslərin həyata keçirildiyi zamanda müasir və yeniləşmiş dövlətimizin Memarı və Qurucusu Heydər Əliyevin düşünülmüş siyasəti dövlətin gələcək həyatının inkişafına hesablanmışdır. Belə ki, Ulu Öndər Azərbaycan dövlətini və xalqını dövrün ən çətin sınaqlarından çıxararaq, ölkənin ictimai-siyasi, iqtisadi və mədəni-mənəvi tərəqqisinə nail olmuşdur. O, Azərbaycanın dövlət müstəqilliyinin qorunmasında və möhkəmləndirilməsində titanik fəaliyyət göstərərək, fundamental uğurlara imza atıb. Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra Azərbaycan dövlətinin dirçəlməsində, mövqeyinin və təməlinin möhkəmlənməsində rolu əvəzsiz olmuşdur. Onun hələ sovet məkanında və müstəqillik illərində xidmətlərinin əhəmiyyəti ictimai-siyasi həyatımızda özünü göstərmişdir.

***- Ümummilli Liderin hakimiyyətinin birinci dövrünü əhatə edən 1969-1982-ci illər ərzində, səhiyyə sahəsində görülən işlər və həyata keçirilən tədbirlər nəticəsində əldə edilən nəticələrlə bağlı nə deyə bilərsiniz?***

- Ümummilli Lider Heydər Əliyev 1969-cu ildə hakimiyyətə gəlişi ilə Azərbaycanı gerilikdən və tənəzzüldən xilas etdi. Kənd təsərrüfatının, sənayenin, iqtisadiyyatın digər sahələrinin inkişafında, sosial məsələlərin həllində, əhalinin rifah halının yaxşılaşdırılmasında böyük irəliləyiş əldə edildi. Təkcə 1970-1980-ci illərdə Azərbaycanda yüzlərlə iri səhiyyə obyektləri inşa olundu. Azərbaycanın bütün sahələrinin inkişafı ilə yanaşı, səhiyyənin də sivil ölkələr səviyyəsinə yüksəlməsinə çalışmış, bu istiqamətdə böyük nailiyyətlər əldə olunmuşdur. İnsanların fiziki və ruhi sağlamlığı ölkənin inkişafında həlledici rol oynayan amillərdən olduğundan, ötən əsrin 60-cı illərininin sonu - 70-ci illərin əvvəllərində, Dahi Öndərin hakimiyyətə gəldiyi dövrdən səhiyyədə ciddi inkişaf dövrü başlandı. Qısa zaman məsafəsində ölkədə Urologiya Xəstəxanası, Diaqnostika Mərkəzi, Neyrocərrahiyyə Mərkəzi, Toksikoloji Mərkəz və s. tibb müəssisələri yaradıldı və əhalinin istifadəsinə verildi. Milli Onkologiya Mərkəzinin yeni korpusunun və Elmi-Tədqiqat Oftalmologiya İnstitutunun yeni kompleksinin tikintisinə başlandı.

Müstəqilliyimizin ilk illərindəki ictimai-siyasi hadisələr, yaşanılan böhran əhalinin sağlamlığının pisləşməsinə səbəb olmuşdur. Demoqrafik göstəricilərin pisləşməsi ilə yanaşı, təhlükəli infeksion xəstəliklər çoxalmışdır. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra bir sıra fərman və sərəncamların imzalanması, tibb sahəsində həyata keçirdiyi islahatlar səhiyyənin səmərəsinin intensivləşdirilməsinə baza yaratdı.

***- Bu gün müstəqil Azərbaycan Ulu Öndər Heydər Əliyevin ideyaları əsasında inkişaf edir. Hazırda Azərbaycanda səhiyyə sahəsinin inkişafı istiqamətində görülən işlər və həyata keçirilən islahatlarla bağlı fikirlərinizi bilmək maraqlı olardı.***

- Ümummilli Liderin başladığı işlər bu gün Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirilir. Dövlət başçısının sonsuz qayğısı və diqqətinin məntiqi nəticəsi olaraq, iqtisadiyyatın inkişafı səhiyyədə də görülən işlərin daha böyük vüsətlə davam etdirilməsinə imkan yaratmışdır. Azərbaycanda müasir tibb avadanlığı və cihazlarla təchiz olunmuş 600-dən çox səhiyyə müəssisəsi əhalinin istifadəsinə verilib. Maddi-texniki bazası gücləndirilən tibb müəssisələri dünyanın qabaqcıl səhiyyə ocaqlarından geri qalmır, hətta mübaliğəsiz desək, onları üstələyir. Sosial sahəyə diqqət və qayğının nəticəsidir ki, dövlət büdcəsi təsdiq olunarkən, sosialyönümlülük prioritet olaraq qalır. Səhiyyəyə diqqət və qayğının artırılması Azərbaycanın səhiyyə sistemini dövrlə ayaqlaşan, qlobal dəyişikliklərə cavab verən və tərəqqi edən bir sahəyə çevirməkdədir. Bütün bunlar gələcəyin təminatı olan insan faktorunun daim diqqətdə olduğunu, onların fiziki cəhətdən sağlam və gümrahlığının diqqətdə saxlanıldığını göstərir.

***Zümrüd BAYRAMOVA***

# Müstəqil Azərbaycan dövlətinin qurucusu



Respublikamızın bütün şəhər və rayonlarında, eləcə də, dünyanın hər yerində Azərbaycan xalqının dahi oğlu, Ulu Öndər Heydər Əliyevin 96 illiyi təntənəli surətdə qeyd edilməkdədir. Yeni Azərbaycan Partiyasının rayon təşkilatlarında da bir çox tədbirlər keçirilir.

YAP Nərimanov rayon təşkilatının qadınlar şurasının sədri Məhəbbət İbrahimova Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif dövrləri ilə bağlı qeyd edib ki, Azərbaycan xalqını düşmüş olduğu bütün bəlalardan xilas edən Ulu Öndər dövlət və dövlətçiliyimizin əbədi olması üçün zəruri olan bütün



**Məhəbbət İbrahimova: “Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev millətimizin və dövlətimizin gələcəyi naminə misilsiz xidmətlər göstərib”**

addımları atıb: “Müstəqil Azərbaycan dövlətinin qurucusu olan Ulu Öndər Heydər Əliyev millətimizin və dövlətimizin gələcəyi naminə misilsiz xidmətlər göstərib. Dahi şəxsiyyət Heydər Əliyev hələ Sovet İttifaqının tərkibində respublikamızda rəhbər vəzifələrdə çalışdığı dönəmlərdə belə Azərbaycanın və azərbaycanlıların gələcəyini düşünmüş və bu günümüz üçün böyük işlərin və layihələrin əsasını qoymuşdur”.

Ölkəmizin ikinci dəfə öz müstəqilliyini əldə etdikdən sonra düşmüş olduğu çətin dönəmlərdən də, məhz Ulu Öndər Heydər Əliyevin siyasi iradəsi və yüksək bacarığı sayəsində xilas olduğunu söyləyən M.İbrahimova dövlətimizin sağlam və sarsılmaz təməllər üzərində bərqərar olmasının əsasının da o dövrlərdə qoyulduğunu vurğuladı: “Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin praqmatik siyasəti ölkəmizin daha da yüksək inkişaf xətti tutmasına şərait yaradıb. Bu siyasəti isə Azərbaycan xalqı dəstəkləyir və bundan sonrakı illərdə də dəstəkləyəcək”.

# Xalqın sosial-mədəni həyatının inkişafında onun xidmətlərinin izləri hər zaman görünməkdədir

***Xalqların və millətlərin taleyində, formalaşmasında, dünyadakı yerinin müəyyənləşdirilməsində tarixi şəxsiyyətlərin, dahi siyasətçilərin və müdrik dövlət başçılarının müstəsna rolu danılmazdır. Azərbaycanın müasir tarixi bilavasitə dünya səviyyəli siyasətçi və dövlət xadimi, dövrümüzün əzəmətli və bənzərsiz şəxsiyyəti, ümummilli liderimiz Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır.***



**Rəşid Paşalı**
**Mənəvi Dəyərlərin Təbliği Fondunun əməkdaşı**

Azərbaycanda dövlətçilik ənənələrinin XX əsrin sonlarında bərpa edilib zənginləşdirilməsi, müstəqilliyimizin möhkəmləndirilməsi, onun əbədi, dönməz xarakter alması, ölkəmizin dinamik iqtisadi inkişaf yolu ilə inamla irəliləməsi, beynəlxalq nüfuzunun sürətlə artması Heydər Əliyevin səmərəli fəaliyyəti sayəsində mümkün olmuşdur. Heydər Əliyev öz müdrik rəhbərliyi, siyasi uzaqgörənliyi, qətiyyəti və əzmkarlığı ilə dövrümüzün görkəmli siyasi xadimi kimi tanınmış, Azərbaycan xalqının ümummilli liderinə çevrilmişdir.

Azərbaycan öz mədəniyyəti, incəsənəti, milli-mənəvi dəyərləri ilə dünyada tanınmışdır. XX əsrdə Azərbaycanın mədəniyyət sahəsində yeni bir dövrün başlanması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan müstəqillik qazandıqdan sonra bir müddət mədəniyyətimiz böyük çətinliklər qarşısında qalsa da, Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışı sanki Azərbaycan mədəniyyətinin də tərəqqisinə yeni təkan verdi. Sosial problemlər ucbatından xarici ölkələrə üz tutan sənət adamları Vətənə döndülər, onlara xüsusi qayğı göstərilməyə başlandı. Bağlanmış teatrlar, kitabxanalar, muzeylər öz qapılarını yenidən tamaşaçılara üzünə açdı.

Heydər Əliyevin Azərbaycanın hərtərəfli inkişafı üçün hazırladığı strateji istiqamətlər hələ uzun illər müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsi və gücləndirilməsi, iqtisadi qüdrətinin artırılması, xalqımızın layiq olduğu xoşbəxt həyata qovuşması işinə xidmət edəcəkdir. Heydər Əliyevin siyasi, iqtisadi, ictimai və mədəni həyatın bütün sahələrində həyata keçirdiyi planlar artıq Azərbaycanın gerçəkliyinə çevrilmişdir. Onun fəaliyyəti də, şəxsiyyəti də Azərbaycan tarixinin ayrılmaz bir hissəsini təşkil edir. Hər bir azərbaycanlının taleyində Heydər Əliyev dühasının bir zərrəsi vardır. Ümummilli liderin parlaq xatirəsi xalqımızın yaddaşına əbədi həkk olunmuş və tariximizdə heç vaxt silinməyən izlər qoymuşdur.

Bütün mənalı həyatını öz xalqına bəxş etmiş Heydər Əliyevin siyasi və dövlət xadimi kimi zəngin fəaliyyəti Azərbaycan xalqının tarixində dərin iz buraxaraq, əsl dövlət idarəçiliyi məktəbinə çevrilmişdir. Azərbaycan xalqının hələ neçə-neçə nəsli bu böyük məktəbdən, Heydər Əliyevin zəngin siyasi irsindən ölkəmizin inkişafı, xalqımızın rifahı naminə faydalanacaqdır.

# Milli dövlətçiliyimizin qurucusu, Azərbaycanı müstəqilliyə qovuşduran Rəhbər

Qəlblərdə əbədi yeri olan, ən böyük vətənpərvər, Azərbaycan adlı güclü dövlətin müəllifi - HEYDƏR ƏLİYEV! Azərbaycana məxsus böyük dühanın - Ulu Öndərin arzularının toplumu yalnız bir istiqamətə köklənmişdir. Xəyalında bəslədiyi müstəqilliyə nail olmaq arzusunu qəlbində daim yaşadaraq, bütün ömrünü bu ideyanı həyata keçirməyə həsr etməsi buna parlaq sübutdur. Onun zəngin irsi ilə dərindən tanış olanda, anlayırsan ki, zəkası tamamilə bir ideyaya, bir düşüncəyə istiqamətlənmişdi - azad, suveren, müstəqil Azərbaycanın qurulmasına! Azərbaycan xalqı olaraq, biz Heydər Əliyevi Ulu Öndərimiz adlandırırıq. Amma etiraf edək ki, bütün bunlar da Onun milli təfəkkürümüzdə daşıdığı statusun yalnız müəyyən bir hissəsidir.



**VÜQAR SEYİDOV, YAP Suraxanı rayon təşkilatının sədri**

Zaman dəyişir, illər bir-birini əvəz edir, lakin tarixə çevrilmiş dahilərin, qəlblərdə ucaldığı heykəl, məxsus olduğu xalqın taleyindəki yeri və rolu öz dəyişməz mövqeyində qalır. Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi dövr minilliklər boyu davam edən dövlətçilik tariximizin şanlı səhifəsidir. Bu mərhələ Azərbaycanda müstəqilliyin əbədi və dönməz xarakter alması, dövlətçiliyin möhkəmləndirilməsi, iqtisadi inkişaf üçün möhkəm təməlin yaradılması, milli-mənəvi yüksəliş, hər bir fərdin özünü layiqli vətəndaş olaraq dərk etməsi ilə müasir tariximizə əbədi həkk olunmuşdur. Ulu Öndər Heydər Əliyev bu gün həm də müstəqil Azərbaycan dövlətçiliyinin xilaskarı və qurucusu kimi çağdaş tariximizə möhürünü vurmuşdur. Böyük strateqin Azərbaycanın dövlət müstəqilliyinin əldə edilməsi və möhkəmləndirilməsi istiqamətində cərəyan edən proseslərin önündə getdiyini, birmənalı olaraq, təsdiqləyən faktlar kifayət qədərdir. Ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanda cərəyan edən mürəkkəb və ziddiyyətli ictimai-siyasi proseslərə qətiyyən biganə qalmayan Ulu Öndər Heydər Əliyev hələ Naxçıvan Ali Sovetinə rəhbərlik etdiyi vaxtlarda əsl vətənpərvərliklə, lider təəssübkeşliyi ilə müstəqilliyin qazanılması və milli özünüdərkin təmin olunması prosesində yaxından iştirak etmişdir. Respublikamızda geniş vüsət almış milli azadlıq hərəkatı ilə eyni dövrdə xalqda milli heysiyyəti, özünüdərki daha da gücləndirən,

> *"İstər bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri, Prezident kimi mənim həyat amalım yalnız Sizə - bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur"*
>
> **Heydər ƏLİYEV**

milli dövlət rəmzlərinə hörmət təlqin edən genişmiqyaslı addımlar da, məhz Ulu Öndər Heydər Əliyevin keçmiş Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına rəhbərlik etdiyi dövrdə atılmışdır. Naxçıvan MSSR-in adının dəyişdirilməsi, burada ilk dəfə olaraq, Azərbaycan Xalq Cümhuriyyətinin rəmzi olan üçrəngli dövlət bayrağının bərpası, muxtar respublikada SSRİ-nin saxlanılmasına münasibəti öyrənən referendumun boykot edilməsi və digər mühüm hadisələr deyilənlərin təsdiqidir.

Dahi Rəhbərin lider kimi böyüklüyü həm də Onun bütün idarəçiliyi boyu azərbaycanlı olmasını unutmamasında, xalqın milli mənlik şüurunu, özünüdərk hissini, mənəvi dəyərlərə bağlılığını gücləndirmək əzmini nümayiş etdirməsində idi. Heydər Əliyevin bütün zəngin və mənalı ömrü Azərbaycan üçün yaşanmış, bu xariqüladə şəxsiyyət həyatını Azərbaycanı və azərbaycançılığı dünyaya tanıtmağa sərf etmişdir. Müstəqillik əldə etdikdən sonra demokratik dövlət quruculuğu yoluna qədəm qoymuş Azərbaycan Respublikasının üzləşdiyi sosial, iqtisadi və siyasi problemlərin müvəffəqiyyətlə həll olunması ölkəmizin beynəlxalq aləmdəki mövqeyi və ayrı-ayrı ölkələrlə milli dövlət maraqlarına cavab verən qarşılıqlı əlaqələri, eləcə də, dünya birliyinə inteqrasiya prosesinin intensivliyi ilə sıx bağlı idi. Bu mənada, Azərbaycanın beynəlxalq münasibətlər sistemində layiqli yer tutması üçün dünya siyasətinin formalaşmasında aparıcı rol oynayan dövlətlərlə və beynəlxalq təşkilatlarla qarşılıqlı münasibətlərin tənzimlənməsi və inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edirdi. Məhz buna görə də, dünya birliyinə bərabərhüquqlu üzv kimi daxil olmağa çalışan və müstəqilliyinin ilk addımlarını atan, eləcə də, Ermənistanın hərbi təcavüzü nəticəsində ərazi bütövlüyü pozulmuş Azərbaycan Respublikasının xarici siyasətində dünya birliyinə inteqrasiya, ikitərəfli və çoxtərəfli münasibətlər, o cümlədən, beynəlxalq təşkilatlarla əlaqələrin yaradılması və inkişaf etdirilməsi Ümummilli Lider Heydər Əliyevin fəaliyyətinin başlıca istiqamətlərindən birini təşkil etmişdir. Ümummilli Lider çox bacarıqlı, son dərəcə təcrübəli dövlət başçısı və yetkin siyasi xadim kimi bu çətin və mürəkkəb vəzifələrin öhdəsindən müvəffəqiyyətlə və böyük ustalıqla gəlmək bacarığı nümayiş etdirdi.

Ümummilli Liderin həyata keçirdiyi təxirəsalınmaz tədbirlər nəticəsində, ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə dönüş yarandı. 1994-cü ildə Ermənistan ilə Azərbaycan arasında atəşkəsin elan olunmasına, "Əsrin müqaviləsi"nin imzalanmasına, 1995-ci ildə konstitusiyasının qəbul edilməsinə, Şərqlə Qərbi birləşdirən Qədim İpək Yolunun bərpa edilməsinə və digər mühüm əhəmiyyətli işlərin həyata keçirilməsinə nail olundu. Dahi Liderin düşünülmüş və müdrik siyasəti nəticəsində qısa zamanda Azərbaycan iqtisadiyyatı inkişaf etdi. Bununla da, Azərbaycanın iqtisadi tərəqqisi başlanmış oldu. Azərbaycanın zəngin təbii resurslarının dünya bazarlarına çıxarılması, neft gəlirlərinin ölkəmizin hərtərəfli inkişafına, xalqımızın rifahının yüksəlməsinə sərf edilməsi Ulu Öndərin uzağa hesablanmış fəaliyyətində əsas yer tuturdu. Heydər Əliyev şəxsiyyəti bütün sistem və ölçülərin fövqündədir. Fəqət, bu ucalıq Onun böyük dövlət xadimi, böyük ictimai xadim və bütün bunların hamısından da əvvəl, böyük azərbaycanlı olması faktını qətiyyən kölgədə saxlamır. Bəli, Heydər Əliyev hər şeydən əvvəl, zəmanəmizin ən böyük azərbaycanlısı idi və Onun idealları bu həqiqətdən qida alırdı.

Ulu Öndər Azərbaycan dövlətini qurdu, səsimizin-sözümüzün dünyada dəyərini də daha artırdı. Müstəqil dövlətçiliyimizin dayaqlarını möhkəmləndirdi. Bu gün həmin o dayaqların möhkəm təməlləri üzərində gələcəyə və xoşbəxt Azərbaycana doğru inamla addımlayırıq. Prezident İlham Əliyevin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş enerji siyasətini uğurla davam etdirməsi nəticəsində, Azərbaycan bu sahədə əsas oyunçulardan birinə çevrilib. Dövlətimizin başçısının enerji siyasəti ilə bağlı təşəbbüsləri və reallaşan layihələr regional çərçivələrdən çıxaraq qlobal miqyas alıb, dünyada nümunə göstəriləcək bir inkişaf modeli formalaşıb. Bu, model Azərbaycan dövlətinin modelidir. Bütün bunlar ölkəmizin gələcək inkişafının qarantıdır!



# ƏBƏDİYYƏT SİMVOLU

***Respublikamızın bütün şəhər və rayonlarında, eləcə də, dünyanın hər yerində Azərbaycan xalqının dahi oğlu, Ulu Öndər Heydər Əliyevin 96 illiyi təntənəli surətdə qeyd edilməkdədir. Yeni Azərbaycan Partiyasının rayon təşkilatlarında da bir çox tədbirlər reallaşdırılmış, bu tədbirlər əsnasında müxtəlif müsabiqələr, idman turnirləri və rəsm sərgiləri keçirilməkdədir.***



**Fərrux Haqverdiyev: "Bu gün iftixar hissi ilə deyə bilərik ki, Azərbaycanımızın inkişaf sükanı Ulu Öndər Heydər Əliyev siyasətinin davamçısı, uzaqgörən Prezidentimiz İlham Əliyevin əlindədir"**

YAP Xızı rayon təşkilatının sədru Fərrux Haqverdiyev tariximizin yetişdirdiyi ən böyük şəxsiyyətlərindən olan Ulu Öndər Heydər Əliyevin siyasi fəaliyyəti barədə danışaraq vurğulayıb ki, Azərbaycanın son 35 illik inkişafı birbaşa Onun adı və ideyaları ilə bağlıdır. Müstəqil Azərbaycan dövlətinin formalaşması, iqtisadiyyatın dinamik, sürətli inkişafı, cəmiyyətin bütün sahələrində aparılan islahatların uğurla nəticələnməsi də Dahi Öndər Heydər Əliyevin xidmətlərinin nəticəsidir. F.Haqverdiyev qeyd edib ki, ölkəmizin tərəqqisi, müasirləşməsi, Azərbaycanın bütün regionlarında quruculuq və abadlıq işlərinin geniş vüsət alması, Ulu Öndərin ideyalarının layiqli davamçısı Prezident İlham Əliyev siyasətinin xalq tərəfindən dəstəklənməsinin bariz ifadəsidir: "Xalqımız 1991-ci ildə dövlət müstəqilliyimizi bərpa etdiyi ilk günlərdə ölkəmiz böyük tarixi sınaqlarla üzləşdi. Belə şəraitdə 1993-cü ildə xalqımızın təkidli tələbi ilə yenidən rəhbərliyə qayıdan Ulu Öndər Heydər Əliyev çox ağır, lakin şərəfli bir vəzifəni öhdəsinə götürərək xalqımızı və dövlətimizi məhv olmaq təhlükəsindən xilas edib. Bundan sonra ölkəmiz inkişaf yolunda addımlamağa başladı. Bu gün iftixar hissi ilə deyə bilərik ki, Azərbaycanımızın inkişaf sükanı Ümummilli Lider Heydər Əliyev siyasətinin davamçısı, Prezidentimiz İlham Əliyevin əlindədir".

**R.KAMALQIZI**

# "Azərbaycan OPEC+ çərçivəsində öhdəliyini yerinə yetirir"

"Azərbaycan aprel ayından hasilatın azaldılmasına nail olub və OPEC+ çərçivəsində üzərinə götürdüyü öhdəliyi yerinə yetirir". SİA-nın məlumatına görə, bunu Energetika naziri Pərviz Şahbazov jurnalistlərə açıqlamasında bildirib.



Qeyd edək ki, 2018-ci ilin dekabrın 7-də Vyanada Neft İxrac Edən Ölkələr Təşkilatına (OPEC) üzv və qeyri-üzv dövlətlərin nazirlərinin V görüşündə neft hasilatının gündəlik 1,2 milyon barel azaldılması ilə bağlı razılıq əldə olunub. Yeni qərara əsasən, 2019-cu ilin yanvar ayından etibarən Azərbaycan gündəlik hasilatın, təxminən, 20 min barel azaldılması ilə bağlı öhdəlik götürüb.

# İslamda evtanaziyaya münasibət

***Məlum olduğu kimi, həkimlərin ölümün tezləşdirilməsinə kömək etməyə və xəstələrin bəzi kateqoriyalarının evtanaziya barədə həkimin təklifini qəbul etməyə hazır olduqlarını sübut edir. Bu isə cəmiyyəti yaxın gələcəkdə əxlaq modelinə müraciət etmək riski ilə üzləşəcəyi kimi real təhlükə haqqında ciddi düşünməyə məcbur edir.***

A.Mustafayeva yazır: "Hesab edirik ki, təbabətin humanist prinsipləri, ağrı və digər iztirablarla mübarizədə müasir imkanlar, ağır xəstələrin müalicəsində tərəqqi, əlillərin reabilitasiyası üzrə yeni sosial proqramlar, nəhayət, xospislər şəbəkəsinin yaradılması - məhz bunlar aktiv fəaliyyətlərin məqsədi olmalıdır. Bunlar ictimai rəyi və tibb işçilərini evtanaziyanın dəstəklənməsinin əleyhinə çıxmağa və onun tənzimlənməsi üzrə xüsusi hüquqi normaların işlənməsinə təşviq etməlidir.

Səhiyyənin maddi-texniki bazasının yaxşılaşdırılması, tibb işçilərinin mənəvi səviyyəsinin yüksəldilməsi evtanaziyanın hər hansı növünə və vasitəsinə qarşı ən yaxşı təminatdır. Fikrimizcə, evtanaziyanın hüquqi tənzimlənməsinin işlənilməsi tibbi baxımdan lazımsız, psixoloji cəhətdən təhlükəlidir, çünki "xoşbəxt ölüm" təbabətin humanist prinsiplərinə ziddir."

Qeyd etmək istəyirik ki, evtanaziya probleminə münasibətdə fəlsəfə, hüquqşünaslıq və təbabətlə yanaşı, din də öz mövqeyini ifadə edir. Lakin onlardan fərqli olaraq, islam dinində evtanaziyanın hər hansı forması qadağan olunur. Həkim tərəfindən pasiyentə qarşı evtanaziya tətbiq edilməsi, əgər bu zaman həkim, hətta humanist məqsədlər güdürsə və pasiyentin xahişini yerinə yetirirsə belə, hər bir halda qətl sayılır. Əgər pasiyent özü iztirablarına son qoymaq məqsədilə fəal hərəkətlər edirsə, bu, intihar kimi təsnif olunacaq. Biz özümüz-özümüzü yaratmadığımızdan və bədənimizin sahibi olmadığımızdan, islam bu cür hərəkətləri böyük günah hesab edir. Bədən bizə verilib ki, onun qayğısına qalaq, yedizdirək və qoruyaq. Bədənimizin sahibi bizə həyat bəxş edən Allahdır. Onun həyatı vermək və ya əksinə, almaq hüququ pozulmamalıdır. İntihar etmək cəhdi islamda cinayət və böyük günah sayılır.

Müqəddəs Quranda yazılır: "Ey iman gətirənlər! Qarşılıqlı razılıqla edilən alış-veriş müstəsna olmaqla, bir-birinizin mallarını haqsız bəhanələrlə yeməyin və özünüzü öldürməyin! Həqiqətən, Allah sizə qarşı mərhəmətlidir!" (Müqəddəs Quran, 4:29), Suisiddən çəkindirən Məhəmməd peyğəmbər demişdir: "Özünu dəmir silahla öldürən şəxs onu daim cəhənnəmdə özü ilə daşıyacaq. Ölmək üçün zəhər içən daim bu zəhəri cəhənnəmdə içəcək. Öz həyatını başa vurmaq üçün dağdan atılan adam daim cəhənnəmin dərinliklərinə düşəcək."

Gerçəkdən də insan həyatı özlüyündə elə bir dəyərdir ki, şəraitdən asılı olmayaraq, qorunmalıdır. İslam "yaşamağa dəyməz" prinsipini qəbul etmir və onun ehkamları iztirablardan yaxa qurtarmaq naminə ölümə haqq qazandırılmasına yol vermir. Evtanaziyanın yolverilməzliyinə sübut olaraq, Məhəmməd peyğəmbərin (s) aşağıdakı kəlamlarını göstərmək olar: "İnsanlar arasında yarası heç cür sağalmayan və həddən artıq ağrıları olan bir adam yaşayırdı. O, elə əzablı ağrılar çəkirdi ki, bir dəfə dözməyərək bıçağı götürüb əlində dərin kəsim etdi və tezliklə qan itkisindən öldü. Uca Allah buyurdu: "Bəndəm özü məni qabaqladı. Mən cənnəti ona qadağan etdim".

Məhəmməd peyğəmbərin (s) intiharı qadağan etdiyi digər bir misal. Hərbi yürüşlərin birində igid bir müsəlman öldürüldü. Silahdaşları döyüşdəki mərdliyinə və cəsarətinə görə onun ruhuna dualar etdilər. Lakin tezliklə onların heyrətinə səbəb olaraq Məhəmməd peyğəmbər (s) dedi: "Onun yeri cəhənnəmdir". Təəccüblənən yoldaşları öyrəndilər ki, bu kişi ağır yaralandıqdan sonra qılıncının dəstəyini yerə soxmuş və sinəsi ilə qılıncın üzərinə atılaraq intihar etmişdir. Ş.Alyautdinovun qeyd etdiyi kimi, şəriət normaları nəzərə alınaraq, "İslam Tibbi Etika Məcəlləsi" nəşr edilmişdir. Burada deyilir: "Eynən suisid kimi, mərhəmət səbəbindən öldürmə də fani dünyadan həyatımızdan sonra heçlik olcağını güman edən ateist təfəkkür tərzində dəstək tapa bilər. İztirabları azaltmaq üçün öldürmək tələbi rədd edilir, çünki dünyada elə bir ağrı yoxdur ki, onu dərmanlarla və ya müvafiq neyrocərrahiyyə ilə yüngülləşdirmək mümkün olmasın". Bu iqtibasdan göründüyü kimi, islam insanın hər hansı formada həyatdan məhrum olunmasını qadağan edir. Bundan başqa, burada deyilir ki, hər bir ağrının öz dərmanı mövcuddur. Bu nikbinliyin əsası var və o, Məhəmməd peyğəmbərin (s) aşağıdakı kəlamlarına söykənir: "Uca Allah xəstəliklər yaradıb. Dərmanları da O yaradıb. Elə isə müalicə olunun!"

Bir bədəvi Peyğəmbərdən (s) soruşdu: "Ya Rəsulullah! Biz müalicə olunmalıyıqmı?" Məhəmməd peyğəmbər (s) buyurdu: " Bəli, müalicə olunun! Allah xəstəliklər də, onlarla birgə müalicə vasitələri də nazil edib. Kiminsə bunlardan xəbəri var, kiminsə yox".

İnsan ruhuna və cisminə ziyan vuran xəstəlik özündə bəzən sınaq, bəzən də Tanrı qəzəbi və günahın yuyulması məqsədi daşıyır. Xəstəliyə düzgün münasibət, eləcə də, dürüst diaqnoz və müalicə forması vacibdir. Məhəmməd peyğəmbər (s) bununla bağlı buyurmuşdur: "Hər bir xəstəliyin dərmanı var. Əgər bu, dəqiq seçilərsə, insan Xaliqin iradəsi ilə sağalır".

İslama görə, xəstəlik sınaq və ya günahların yuyulmasıdır. Bu yanaşma Qurani-Kərimdə də öz əksini tapmışdır: "Əgər Allah insanları günahlarına, haqsızlıqlarına görə cəzalandırsaydı, yer üzündə heç bir canlını sağ qoymazdı. Lakin (Allah) onlara müəyyən müddət (ömürlərinin sonunadək) möhlət verər. Əcəlləri gəlib çatdıqda isə, onlar bircə saat belə nə yubanar, nə də tələsərlər". Bu ayədən aydın olur ki, xəstəlik - günahlara görə bağışlanma şansı qazanmaqdır, əcəl vaxtı isə, yalnız Allaha bəllidir. İnsanın təkcə müalicə olunmaq hüququ deyil, həm də öhdəliyi olduğu barədə Şamil Alyautdinov haqlı olaraq yazır: "Ölüm - insanın müəyyən həyati durumlarda seçiminin olmamasına dair ən parlaq nümunələrdən biridir. İnsan qərar verə bilməz ki, bu gün ölsün, yoxsa yox. Lakin həkimlərin təsdiqinə görə, onun üçün ölümcül olan xəstəliklərdən müalicə olunmaq və xəstəliklərə qarşı durmaq üzrə hüququ və hətta öhdəliyi var. İradəsinin gücünü göstərən bu insan sağala bilər, amma bu, o demək deyil ki, o, ölümünü təxirə salıb. Sadəcə, ondan ötrü ölüm zamanı hələ başlamayıb. Eynilə də, insan yüngülcə xəstələnə bilər, lakin yanında həkim olmaz, yaxud dərman almaq üçün maddi imkanı olmaz və o, ölər. Vaxt gəlib çatdı".

Beləliklə, Qurani-Kərimin yuxarıda xatırlatdığımız ayələrini və Məhəmməd peyğəmbərin (s) hədislərini nəzərə almaqla, bir daha qeyd etmək olar ki, evtanaziya islamda yolverilməzdir. Pasiyent ailə və dostlarının mənəvi dəstəyi və şəfqəti ilə əhatə olunmalı, həmçinin, öz daxili ruhi ehtiyatlarını səfərbər etməlidir. Həkim ağrını yüngülləşdirmək üçün terapevtik üsullarla yanaşı, pasiyentə ruhi və mənəvi dəstək də göstərməyə borcludur. Dilemma o zaman yaranır ki, ağrını yüngülləşdirmək üçün verilən dərmanın dozası ölümcül həddə gəlib çatır və bu, insanın məhvinə səbəb ola bilər. Bu cür hallarda "İslam Tibbi Etika Məcəlləsi" bildirir: "İnsan həyatının müqəddəsliyini nəzərə alaraq, həkimə, hər halda, pasiyentin vəziyyətini böhranlı qiymətləndirmək tövsiyə olunur. Əgər həkim elmi biliklərə əsaslanaraq, insanı həyata qaytarmağın mümkünsüzlüyünə əmindirsə, onda orqanizmi inadla bitki kimi saxlamağın, habelə kriodondurma, yaxud digər süni üsulların köməyi ilə insanı qorumağın mənası yoxdur. Həkimin vəzifəsi ölümü deyil, həyat prosesini dəstəkləməkdir."

İlk baxışda, bu iqtibas həkimə, hər halda, evtanaziya tətbiq etmək hüququ verir. Amma belə deyil. Əvvəla, son həddə birbaşa mətnlə həkimə pasiyentin həyatının dayandırılması üçün aktiv hərəkətlər etmək qadağan edilir. İkincisi, əgər biz burada göstərilən şəraiti müqayisə edəriksə, evtanaziyanın mövcudluğu, yaxud olmaması hallarını tutuşdurarkən, məlum olar ki, burada evtanaziya mövcud deyil.

Müasir anlamda insan hüquqları - onun inkişafının daha əhəmiyyətli imkanları, insan azadlığının ölçülərini müəyyənləşdirən ayrılmaz xüsusiyyətləridir. Hüquq və Azadlıqlar İnstitutu Azərbaycan Respublikasının konstitusiya hüququnda mərkəzi yerlərdən birini tutur. Belə ki, Azərbaycan Respublikasının Konstitusiyasında bəyan olunur ki, insanın əsas hüquq və azadlıqları ayrılmazdır və hər bir kəsə anadangəlmə məxsusdur.

Məlum olduğu kimi, hazırda demoqrafik böhran və reproduktiv sağlamlıq problemi ictimai diqqət mərkəzindədir. Buna, bütövlükdə, dünyada və eləcə də, Azərbaycan Respublikasında əhalinin sağlamlığının, xüsusilə də, reproduktiv sağlamlığın pisləşməsi istiqamətində yaranmış əlverişsiz meyillər daha çox səbəb olmuşdur.



***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*



# Ağcabədidə "Heydər Əliyev: Multikulturalizm və tolerantlıq ideologiyası" mövzusunda konfrans keçirilib



Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə Azərbaycan Respublikası Təhsil Nazirliyinin, Azərbaycan Dillər Universitetinin, Yeni Azərbaycan Partiyasının birgə təşkilatçılığı ilə "Heydər Əliyev: Multikulturalizm və tolerantlıq ideologiyası" mövzusunda II Beynəlxalq Elmi Konfrans çərçivəsində Ağcabədi rayonunda yerləşən 556 ailəlik məcburi köçkün qəsəbəsində yerləşən Xocavənd rayon Xocavənd kənd 1 saylı köçkün tam orta məktəbdə konfrans keçirilib. Konfransı YAP Ağcabədi rayon təşkilatının sədri Rövşən Əhmədov açaraq, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 96-cı il ildönümü münasibətilə keçirilən Beynəlxalq Elmi Konfransının bölgələrdə davam etdiyini bildirib. O, Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın dövlətçiliyi və xalqımız qarşısındakı misilsiz xidmətləri barədə məlumat verib. Konfransda Azərbaycan Dillər Universitetinin dosenti Ceyhun Alıyev "Multikulturalizm və dini identiklik" mövzusunda, Azərbaycan Dillər Universitetinin müəllimi, iqtisadiyyat üzrə fəlsəfə doktoru Şəfəq Abdullayeva "Heydər Əliyev-azərbaycançılıq ideologiyası və multikulturalizm" mövzusunda, Azərbaycan Dillər Universitetinin müəllimi, iqtisadiyyat üzrə fəlsəfə doktoru Sevda Məhərrəmova "Multikulturalizm Azərbaycanda beynəlxalq münasibətlərin elementi kimi" mövzusunda, Xocavənd rayon Xocavənd kənd 1 saylı köçkün məktəbinin müəllimi Gülbuta Tahirova "Heydər Əliyevin gənc nəslə tövsiyələri" mövzusunda, həmin məktəbin müəllimi Mehriban Behbudlu "Heydər Əliyev və Azərbaycan məktəbi" mövzusunda çıxış ediblər. Ağcabədi rayon Ağsaqqallar Şurasının sədri, YAP Ağcabədi rayon təşkilatının şura üzvü Əlizadə Nəcəfov çıxış edərək, Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin qorunmasında Ulu Öndər Heydər Əliyevin müstəsna xidmətlərindən danışıb.

Tədbirin sonunda Xocavənd rayon Xocavənd kənd 1 saylı köçkün tam orta məktəbin V sinif şagirdi Sərmayə Mehralıyeva şeir söyləmiş, məktəbin direktoru Sürəyya Məmmədova tədbirdə iştirak etdiklərinə görə qonaqlara öz təşəkkürünü bildirmişdir.

***ZÜMRÜD BAYRAMOVA***

## Elan

**Bakı şəhəri, Nərimanov rayonu, Koroğlu Rəhimov küçəsi, ev 13, mənzil 2;3 ünvanda yaşayan Əliyeva Ofelya Həsən qızının adına verilmiş seriya RX 0336901 saylı çıxarış itdiyi üçün etibarsız sayılır.**

# "ƏBƏDİYAŞAR LİDER"

*Pirallahıda Ulu Öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş tədbir keçirilib*

***Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatı və Pirallahı rayon icra hakimiyyətinin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş "Əbədiyaşar Lider" başlığı altında tədbir keçirildi. Pirallahı rayon Gənclər Mərkəzində keçirilən tədbirdə millət vəkilləri, YAP Pirallahı rayon təşkilatının fəalları və ictimaiyyət nümayəndələri iştirak ediblər.***






Tədbiri giriş sözü ilə açan YAP Pirallahı rayon təşkilatının sədri Hikmət Şikarov qeyd edib ki, Azərbaycanın böyük tarixi şəxsiyyəti, Ümummilli Lider Heydər Əliyevin ideyaları 21-ci əsrdə Onun layiqli varisi Prezident İlham Əliyev tərəfindən, Ulu Öndərin yaratdığı Yeni Azərbaycan Partiyası tərəfindən uğurla davam etdirilir: "Ulu Öndər Heydər Əliyev siyasət məktəbinin layiqli yetirməsi olan İlham Əliyevin böyük siyasətdə atdığı inamlı addımlar nəticəsində Azərbaycanda təkcə sosial-iqtisadi sistemdə deyil, həm də siyasi və ictimai təsisatlarda əsaslı yeniləşmələr olmuş, səmərəli intensiv islahatlar aparılmışdır".

Tədbirdə qonaq qismində iştirak edən Yeni Azərbaycan Partiyası Beynəlxalq Əlaqələr Komissiyasının katibi, Milli Məclisin İnsan Hüquqları Komitəsinin və Beynəlxalq Münasibətlər və Parlamentlərarası Əlaqələr Komitəsinin üzvü, millət vəkili Elman Nəsirov, Milli Məclisin Mədəniyyət Komitəsinin sədr müavini, Əmək və Sosial Siyasət Komitəsinin üzvü, millət vəkili Jalə Əliyeva, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının tədris işləri üzrə prorektoru, professor Əlikram Abdullayev, Yeni Azərbaycan Partiyası Yevlax rayon təşkilatının sədri, Milli Məclisin Əmək və Sosial Siyasət Komissiyasının üzvü, Səhiyyə Komitəsinin üzvü, millət vəkili İlham Məmmədov, Azərbaycan Səhiyyə Nazirliyi Milli Onkologiya Mərkəzinin baş direktorunun müavini, Milli Məclisin Səhiyyə Komitəsinin üzvü, millət vəkili Kamaləddin Qafarov və Pirallahı rayon icra hakimiyyəti başçısının müavini Anara Hacıbəyli çıxış edərək, Ümummilli Lider Heydər Əliyevin xilaskarlıq missiyasından, Azərbaycanın dövlət müstəqilliyinin qorunması, möhkəmləndirilməsi və inkişaf etdirilməsi yolunda əvəzsiz xidmətlərindən danışıblar.

Tədbirin sonunda Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının ictimai-siyasi həyatında fərqlənən bir qrup şəxsə Fəxri Fərmanlar təqdim olunub.

***Rövşən NURƏDDİNOĞLU***

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**